**FƏRHAD MƏMMƏDOV**

# “Böyük Sui-qəsd Nəzəriyyəsi “

**Pikaresk roman**

**2011**

## II HİSSƏ

## I FƏSİL

## T”Э”KLİF

### İki il əvvəl

“Böyük adam” bir ayağını digər ayağının üstünə qoyub belini yumşaq, diyircəkli ofis kreslosuna söykədi. İmran heç də bu insanı tanımırdı. Onunla görüşmək fikri belə yox idi. Başa düşə bilmirdi ki, komitə başçısı ilə, heç olmasa başçı əvəzi ilə görüşməli olsa da, onu niyə tam yad, üstəlik xarici görünüşündən gömrük sisteminin heç qapıçısına da yaxın düşməyən bir cılız, boynu bükük bir yaşlı kişi ilə üzləşdirmişdilər. İmrana elə gəlmişdi ki, onu bu zavallı gömrükçü ilə üzləşdirməkdə məqsəd artıq bir neçə ay ərzində gömrük komitəsinin ardı-arası kəsilməyən məktubları ilə bezdirmiş İmranı başlarından etmək, yəni formalitəni yerinə yetirmək üçün onu qəbul etmək idi. İlk vaxtlar təklifini elektron poçtla göndərdi, dedilər elektron poçtla deyil, rəsmi qaydada ərizə şəklində yazıb adi məktubla yolla. Birinci məktubuna cavab gəlmədiyindən hikkəsinə salıb, ikincini, üçüncünü,...səkkizincini də göndərdi. Nəhayət bir ay sonra komitənin ştampını, möhürünü və komitə rəisi müavinin imzasını daşıyan rəsmi cavab gəldi və həmin günə görüş təyin edildi. Əslində həmin

zavallı görükən, ağ kostyumlu dazbaş kişi heç də gömrük işçisi deyildi. Həmin şəxs geosiyasi proseslərə birbaşa təsir edən pərdə arxası şəxs idi. Bu “böyük adamı” Fici adalarında istirahətdə olarkən, təbil kodu ilə geri çağırmışdılar. Belə şəxsin istirahətini puç etmək üçün isə gərək ən fövqaladə və ya ən yaxşısı fövqəltəbii iş baş verəydi. İmranın təklifi (onun yazdığı topa-topa məktublardan bir neçəsi) komitə başçısının masasına çatdıqda, başçı onunla tanış olub, absurd təklifin cəfəng olub hansısa bir sarsağ tərəfindən yazıldığını güman etmişdi. Lakin daha dolğun tanış olduqdan sonra daimi enerji mənbəyi tapılıbmış kimi tərəddüd etmədən həmin ağ kostyumlu şəxsi təcili geriyə, Azərbaycana çağırmalı olmuşdur.

Sanki gəlişinin mənasız olduğunu söhbət əsnasında başa düşübmüş kimi , əsnədi, sağ əli ilə vərdiş etdiyi kimi iti bucaqlarla çəkilmiş mavi zolaqlardan və qırmızı işləmələrdən ibarət qalstukunu oynatmağa başladı. Səsi çox boğuq çıxırdı. Sanki ağ ciyərləri süni vasitələrlə hərəkət edirdi. Hindu tayfa başçıları tək taqətsiz və fasiləli şəkildə danışırdı.

- Sənin artıq beş dəqiqən qalıb...İmran. Mümkün qədər lakonik!.-deyə heç İmranın sifətinə baxmadan həvəssiz şəkildə gündə qaralmış dərisi fonunda solğun görünən dodaqlarını tərpətdi.

İmran ən son kozırına əl atmalı oldu. Ancaq ona yenidən aydın olanda ki, (əslində vəziyyəti və qarşısındakı insanın imtiyazlarını tam səhv dəyərləndirmişdi) həmin şəxslə formalitə olaraq görüşdürüblər, bir qədər laqeyd şəkildə sözləri ağzında boşaltdı.

- ...Hmm...Necə deyim... Mən artıq ABŞ səfirini də razı salmışam.

Səfir sözünü eşitmişdi ki, İmran ağ kostyumlu kişinin ani olaraq qalstukunu oynatmağını kəsdiyini gördü. Kişini sanki iri hörümçək paralizə etmişdi, bir neçə saniyə bir söz demədən, keyiyib yerində qaldı. Yerində donulu qalsa da, dodaqlarını tərpədib soruşdu:

- Necə yəni onu razı saldın. Hansı yolla?

- Qəsd nəzəriyyələri sayəsində.

- Qəsd nəzəriyyələri ?– deyə beynindəki biotokların mübadilə ardıcıllığı bir anlıq pozulmuş ağ kostyumlu kişi özünü itirdi.

- Əslinə qalanda suiqəsd-nəzəriyyələri, ABŞ-lılar buna ‘***konspirasi seori’*** deyirlər. Bildiyiniz kimi bu adlandırdığım “suiqəsd nəzəriyyələri” daima müzakirə obyekti olub, gündəmdə olsa da, belə hadisələrin əsl tarixçəsi, real səbəbləri gizlində qalıb. Misalçın, Yerin peyki olan aya Armstronqun səfərinin saxta olması, NASA-nın  Teslanın işlərinin davamı kimi apardığı böyük büdcəli eksperimentlərlə dünya iqlimini süni şəkildə dəyişməsi, bilərəkdən sunamilər, zəlzələlərə təkan verməsi, ən yaxşısı birinci dünya müharibəsi illərində ingilis casusu polkovnik Lourensin Əfqan şahı kimi müvəqqəti hakimiyyətə gəlməsi, bunlar hamısı üstü açılmış və açılmamış suiqəsd nəzəriyyələridir. Azərbaycanda bəlkə çoxları suiqəsd nəzəriyyəsi deyilən bir şey eşitməsə də, Amerikada ***konspirasi seori*** mövzusu demokratiyanın açıq qapıları sayəsində daim KİV-də, internetdə, bloqlarda, o cümlədən sosial şəbəkələrdə işıqlandırılır. Mənim fikrim əvvəlcə cənab səfirə cəfəng gəlsə də,

sonra ətraflı izah etdikdən sonra, sir-sifəti elə dəyişdi, adrenalini elə qalxdı ki, soyuqqanlı ingilis xarakterinə zidd şəkildə yerindən qalxıb mənim başımdan öpdü, elə bil Fransa yığmasının müdafiəçisi Löböf  oyunqabağı qapıçı Bartezi öpürdü.

Ağ kostyumlu kişi İmranın sözünü kəsmədi. İmran özü fasilə etdi. Yəqin həmin səlahiyyətli şəxsin üz cizgilərindən dediklərinin onun buzlarını əridib-əritmədiyini müəyyən etmək istəyirdi. Otağın çölə baxan şüşə lövhəsinə guppultu ilə çırpılan sərçə, İmranı yerindən dik attandırdı. Binanın şüşələri elə pırılcasına silib-təmizlənmişdi ki, zavallı sərçə içəri keçə bilmək üçün heç bir maneənin olmadığını sanıb, yüksək sürətlə özü də bilmədən həyatına qəsd etmişdi. İmran yenidən kresloya oturduqda qarşısındakı insanın bir an öncəki hadisəyə heç bir reaksiyə verməyib, gözlərini hələ də tavana zilləyib nəisə dərindən təhlil etdiyini gördü.

- Bəs de görüm, bu suiqəsd nəzəriyyələrinin bizim komitəyə nə ayidiyyatı var, KOSMETİKAYA nə aidiyyatı var?
- Kosmetika  elə mənim suiqəsd nəzəriyyəmin əsasını təşkil edir- deyə kinayə dolu baxışla, məğrurcasına cavab verdi.

Katibə qapını bir qədər açıb başını aradan çıxarsa da (çay gətirib-gətirməməyi öyrənməyə çalışdı) Ağ kostyumlu əli ilə ona təcili qapını örtməyə işarə etdi.

- Ətraflı danış
- Kosmetika – eramızdan qabaq belə Misirdə, Qədim Yunanıstanda, Romada istifadə olunan və inkişaf edən, (birbaşa tərcüməsində) eyibləri gizlətmə vasitələrinə

deyilir. Gündəlik istismarına görə siqaret və spirtli içkini belə ötüb keçən şəxsi gigiyena ilaçları. Bu günün, əsasən də müasir dünyanın qadınını kosmetikasız təsəvvür etmək mümkün deyil. Müəllimindən tutmuş, JEK-lərin süpürgəçilərinə kimi bütün qadınları gündəlik olaraq bu məhsullardan istifadə edir. Halbuki bir vaxtlar, on səkkizinci əsrdə yalnız zadəgan ailələrindən olan qadınlara kosmetikadan istifadəyə rəvac verilmiş, indiki zamanda adi hal olan, həddən artıq ənlik-kirşan yaxan qadınlara isə (məsələn İspaniyada) pozğun qadın kimi baxmışlar. Həmin dönəmlərdə şahzadələr, faraon xanımlar, qrafinyalar çirkin və kifir görünə bilməzdi. Məhz buna görə kosmetikadan yalnız elita istifadə edərdi. Bunun sayəsində idi ki, sözün əsl mənasında təbii gözəllər göz qabağında olurdu. İndi isə globallaşmaya məruz qalmış əksər ölkələrdə isə kosmetikadan istifadə o qədər ifrata çatıb ki, istənilən qadına baxanda ağzının suyu axır. İstəyirsən o dəqiqə onunla evlənib....(İmran bilmədən ədəbsizlik etdiyindən utanıb, cümləsini tamamlamadı)

Evlənəndən sonra səhər kişi gözünü açanda görür ki, sən demə həmin boyalanmış, sehirli rəssam- makiyajın əlindən keçmiş həmin məşuqə eybəcər ifritənin biri imiş. Azərbaycan qadını arasında kosmetikadan istifadə son günlərdə ən kritik həddinə çatıb. Artıq yeddinci sinif qızları belə ən azından gözlərinə karandaş və ya sürmə çəkirlər. Halbuki misir şahzadələri sürməni gözəl görünməkdən çox bəd nəzərdən qorunmaq üçün yaxırdılar.  Əsl gözəlləri

müəyyən etmək çox çətinləşib, təəssüf ki, Aşıq Ələskər kimi təbii gözəl axtarışına çıxmalı olursan.

- Bütün bu enkslopedik bilgilərini qoyaq bir qırağa. Sənin məqsədin nədir. O məktublarında bar-bar bağırdığın “TƏKLİF” nədən ibarətdir.
- Təklifim odur ki, ən azı bir illik kosmetikanın idxalına mane olasınız
- Pff...Sən deyəsən bir az havalısan axı... Bu mümkün olan şey deyil,...necə ki, narkoman narkotikdən azad ola bilmir, qadını da kosmetikadan məhrum etmək olmaz. İstər-istəməz hansısa yollarla gəlib çıxacaq. Həm də ki, bir il çox qısa müddətdir. Axı hər beş evdən birində qız uşağı üçün ən azı iki xonça kosmetika ehtiyatda durur. Həm də ki, dükanlarda, göz dəyməsin ağzına kimi kosmetik vasitələrlə aşıb-daşır. Mümkün olan şey deyil. Heç lüzum da yoxdur. – deyə  Ağ kostyumlu qarşısında dəli ilə dialoq apardığı üçün taleyinə lənət yağdırdı. Demək olar ki, çox həvəssiz hala düşdü.
- Mümkündür...
- Necə?
- Elə ABŞ səfiri ilə də bunu müzakirə edirdik. KİV-də dizinformasiya yaymaqla kosmetikadan bir neçə on və ya yüz nəfərin yeni dəhşətli infeksiyayla o dünyaya köçdüyünü car çəkmək.  Necə ki, 18-ci əsrdə Palermo şəhərində madam Toffana ixtira etdiyi və formulası indiyənədək sirli qalan iysiz və qoxusuz zəhər- Aqua Toffananı kirşanda tətbiqini tapmaqla, 600-a yaxın italyan kişisinin ölümünə bais olmuşdu. O zaman qadınları

ərlərinin həyatına qəsd etmək istəyəndə madam Toffananın bu müəmmalı kirşanından istifadə edir və 2 gündən sonra dul varisə çevrilirdilər. İndi isə kosmetikanın kollosal əks təsirlərindən şişirdib, havada olan, qeyri-real qurbanların sayını daha da artırmaq olar. Sadəcə olaraq, bu halda qadınların təqribən 70%-i könüllü şəkildə kosmetikadan istifadəyə son deyəcək, qalan 30% faiz isə yaxşı gəlirli-keçimli katibəlik vəzifəsini, süni qadın gözəlliyinə vurulmuş ərini, heyranı olan fanatlarını əldən verməmək üçün canlarından belə keçməyə razı olacaq, bir sözlə kosmetikadan hər vəchlə istifadə edəcəklər. Belə olan halda icbari rıçaqlar həyata keçəcək ki, bunu müxtəlif inspeksiyaların sayəsində həyata keçirmək mümkün olacaq. ..Bir də ki bu tədricən baş verəcək.

Ağ kostyumlu şəxsin təmkinindən artıq əsər-əlamət qalmadı, yerindən qalxıb, nəzərlərini gah döşəməyə gah da ki, kabinetin divarından asılmış əl işi rəsmlərə zilləməklə otaqda o yan-buyana addımladı.

- Bəs bu sənin dırnağ arası böyük nəzəriyyəndə, bizə nə kimi xeyir var. Dünyada yəni elə inandırıcı, ratsional əsas mövcuddur ki, ən böyük riskə gedib, kosmetikaya qadağa qoymağa qərar verək. Əlbəttə ki, kosmetikaya qadağa qoyacaq ən axmaq hökümət kimi tarixə düşməkdən savayı.
- Sizə böyük xeyri var. Özü də ikitərəfli xeyri var.Birincisi odur ki, kosmetika satışına qadağa aradan qalxandan sonra, ən qısa müddət kimi bir ildən sonranı götürsək, o

zaman kosmetikanın qiyməti birə on, birə iyirmi artacaq. Uzun müddət süni gözəllikdən məhrum olmuş əksər qadınlar isə nəyin bahasına olursa  olsun bu kosmetik vasitələri almağa can atacaqlar.  Lap yanacaq məsələsi kimi,...ABŞ-ın daha bir suiqəsd nəzəriyyəsindən...O zaman dünyanın 3-cü ən güclü neft istehsalçısı İraqa hücum edir ki, neftin qiymətini süni yollarla qaldırsın, yalnız ABŞ diktəsi altında marionet  hökümətləri olan neft ölkələri bundan xeyir görür. Bizim suiqəsd nəzəriyyəmizdə isə bizim dövlət büdcəsi böyük xeyir görəcək. Gömrük rüsumları qalxacaq, kosmetikanın qadağadan sonrakı yerli satışlarından dövriyyəyə böyük manat kütləsi daxil olacaq, bankların kredit vermə sistemi daha çevik xarakter olacaq. İkincisi isə odur ki, kosmetika birbaşa olaraq hökümətin monopoliyasına keçəcək.

Şüşə pəncərədən axan gün işığının gözlərini qıcıqlandırdığını hiss edib, jalyuzin məsamələrini azaltdı. Otağ həmən bir qədər qaranlıqlaşdı. Əvvəlki yerinə qayıdıb növbəti sualını verdi.

- Bəs kosmetikaya cavabdeh olan hansısa bir beynəlxalq qurum – düzünü sən bilirsən- soruşmaz ki, nə səbəbdən durduğunuz yerdə hardasa beş altı nəfər keçinib deyə o boyda böyük pulları hüdudlarınızdan uzaqlaşdırırsız.

İmran belə görüşə çoxdan hazırlanmışdı. Yaxşı başa düşürdü ki, bu ölkənin ən kəllə idarəçiləri belə Yer planetində kosmetikaya cavabdah olan qurumun Şəxsi Qiqiyena Məhsulları Şurası olduğundan xəbərsizdir.

- Kosmetikaya ŞGMŞ baxır, Baş qərərgahı Vaşinqtonda yerləşir.  600 dan çox üzvü var,... yəni bu qurum

tərəfindən kosmetika satışına rəsmi lisenziyası olan iri kosmetik şirkətləri, ən iriləri də ABŞ şirkətləri, holdinqləridir ki, bu da onu təsdiq edir ki, qurumun beynəlxalq xarakter daşıması formal bir şeydir. Araşdırmaların batinə baxsaq görərik qurum əslində Ağ evin göstərişləri əsasında işləyir. ABŞ-a isə sərf edir ki, spekulasiya və qəsd nəzəriyyələri vasitəsilə müəyyən regionda müəyyən sahə üzrə hegemon təchizatçıya çevrilsin. Özünüzün uzaq görənlik məharəti varsa, bir qədər qabağı gözə gətirsəz, görəcəksiz ki, hal-hazırda Bakının şəbəkə marketinqlərini fəth etmiş aşağı keyfiyyətli İsveç, Rusiya, Çin kosmetikası avtomatik olaraq bazardan sıxışdırılıb çıxarılacaq. Müştəri beynəlxalq qurumun təhlükəsiz olduğunu təsdiq edəcək (hansı ki ən tezi bir neçə il sonra baş verəcək) kosmetik vasitələri almağa can atacaq, nəinki ucuz başa gələn 3-cü sort məhsulları.

Bir neçə saniyəlik fasilə yarandı. Ağ kostyumlu bütün deyilən informasiyaları sanki daxilinə presləmək istəyirmiş kimi dərindən köks ötürdü.

- ABŞ-ı da başa düşdüm. Sənin əsas məqsədin nədir?
- Mənim ən böyük arzumdur ki, bizim millətin təbii gözəllərini bir neçə aylıq da olsa görə biləm...Saç boyaları, kirşan, tonal krem, tuş, ənlik, fiksatorlar, üz maskaları, pomada, karandaş, yoxa çıxsın. Qadınlar kişilərdə heyvani hisslər oyatmaqdansa, ağılları, kamalları, ədəb-ərkanları və ən nəhayət Allah verən gözəllikləri ilə diqqətlərini cəlb etsinlər.

Tuk-Tuk-Tuk! Çəhrayı laklanmış palıd ağacından olan möhtəşəm qapı yenidən açıldı. İmran gözlərinə inanmadı. Ona KİV-dən yaxşı məlum olan komitə sədri sanki rəhbərinin otağına girirmiş kimi, fağırca ədayla içəri keçdi və Ağ kostyumluya çəkinə-çəkinə müraciət etdi:

- Müəllim, nə xoşdur Sizi burada görmək, -İmranı heç toz yerinə də almayıb, Ağ kostumlunun əlini yaxşıca sıxdı. – Uşaqlara tapşırmışam, söhbətinizi qurtaran kimi, sizi mənim şəxsi maşınımda bağıma aparsınlar...Mən ölüm inciyərəm...Dost-aşnalar hamsı orda olacaq...Bax mütləq orda olmalısız...Mən hələ bilmirəm, keçən ilki məsələyə görə Sizin xəcalətinizdən necə çıxacam. –deyə sağollaşıb xeyir dua yağdıra-yağdıra otağı , tatamini üzü senseyə tərk edənlər kimi dal-dala addımlarla tərk etdi.
- Bax belə mənim gənc fantazyorum...Yaxşısı budur get xeyirxah işlərlə məşğul ol...Bəs heç demədin sənin həqiqi ixtisasın nədir?.- İmranın divara vurulmuş vizual ekranlı kalendara kökləndiyini gördü.- Bəlkə sənə komitədə işə düzəltdik.

İmranın gözləri dolmuşdu. Bir söz demədən, özüylə gətirdiyi məlumatla dolu listləri, broşurları qalaq edib, çiynindəki ryukzaqına keçirdi, ağzının ipini yaxşıca sıxıb, sağollaşmadan qapıya doğru irəlilədi. Otağı tərk etdikdə də bir söz demədi.
Ağ kostyumlu, gəncin belə spontan hərəkətinə özlüyündə izahat vermək üçün yenidən divardakı vizual ekrana baxdı. Orada cari təqvimdən başqa bir şey görmədi.

## II FƏSİL

## Böyük gözləntilər

Sümükləri gecənin qaranlığında qaçmaqdan zingildəyirdi. Ürəyi durmadan sürətli ritmlərlə döyünüb, nəzərdə tutulduğu hədəqədən çıxmaq təhlükəsində idi. Və ya ən azından təzyiqin son həddə çatmasından ürək damarlarını param-parça edə bilərdi. Səlim böyük səhvi onda buraxdı ki, magistraldan – insanların daha sıx olduğu yerdən uzaqlaşıb amansız təqib altında Razin spusku kimi tanınan bir tərəfi kiçik meşəlik olan istiqaməti seçdi. O qədər də hündür o

lmayan daş hasarı, üst başını cıza-cıza aşdı. Təqib edənin isə yalnız bir məqsədi var idi: onun böyük sirrini aşkar etmiş Səlimi sözün əsl mənasında ləğv etmək. Qaça-qaça üzü aşağı bir neçə cərgə iri şam ağacını adlayıb, nəfəsini ötürmək üçün üç-dörd saniyəlik fasilə etdi. Bərəlmiş gözlərlə ilk öncə arxaya nəzər yetirdi. Əlli metr yuxarıda arabir maşınların gur fənər işıqları ötüşürdü. Razin spusku yolunun öz dirək fənərlərinin olmaması isə maşın keçmədiyi anlarda bütün nəhəng ərazini tükürpədici zülmətə qərq edirdi. Təqib edəndən iz yox idi. Onsuz da belə gecədə təqib edəni axtarmaq, qaranlıq otaqda qara pişik axtarmağa bərabər idi. Bununla belə arxaya baxanda adama bir təsəlli verirdi, hərdənbir evə tələsən avtomobil işıqları. Qorxa-qorxa üzünü tədricən çevirib önünə baxdı. Vahiməli meşəliyi dəlib Razinə çıxmaq üçün ən azı üç yüz metrə qaçmalı idi. Halbuki bu vəhşi ərazidə on metrə irəlini görmək olmurdu. Üstəlik Səlimə elə gəldi ki, (ətrafda belə şey gözə

dəymirdi) meşənin içindən dumana bənzər çətin gözə görükən buxar göyə qalxır. Başının üstündən ani olaraq gələn vıyıltı və sinxron budaq xışıltısı onu reflektiv olaraq yerə aşırdı. Ürəyi bir neçə saniyə şok vəziyyətinə düşüb vurmadı. Başını yuxarı qaldırdıqda, iri bir bayquşun parıldayan gözləri ilə iti nəzərlər altında Səlimi süzdüyünü gördü.Bayquş qanadlarını bir neçə dəfə çırpsa da, qarşısındakının təhlükə mənbəyi olmadığını hiss edib, uçmaq fikrindən daşındı.

- Lənətə gələsən! –deyə mövhumatdan uzaq olan insan tipinə məxsus hərəkətlə ("Bayquşu vurma ki, yasın gec gəlsin"kimi məsəllərə əhəmiyyət verməyərək) ayağının altında xırda daş parçası götürüb, quşun düz sağ ayağından vurdu. Bayquş sanki qarğış yağdırırmış kimi, qəribə şikayət səsləri ilə bir havaya qalxdı və gözdən itdi.

Hava isti olsa da, həyacandan yarpaq kimi əsirdi. Səlim  hələ lap balaca vaxtlarından qandan qorxurdu və qorxudan əlavə qana qarşı sanki alergiyası var idi. Alergiyadan da güclü təsiri olan bir hal idi, qan və Səlim tək-bə-tək qalanda. Qanı görən kimi, qeyri-iradi şəkildə əlinin və ayaqlarının əzələləri boşalırdı. Addımlamaq istəsə də addımlaya bilmirdi. Əlində saxladığı istənilən şey özündən asılı olmayaraq yerə düşürdü.  İndi də oxşar vəziyyət idi. Qorxudan ayaqları sözünə baxmırdı.

- Belə baxanda heç 150 metr qalmayıb, kafenin yanından çıxmağa, oradan qaçqınların məhəlləsinə daxil olub, podyezdlərin birində gizlənərəm –deyə düşünürdü ki, tarappıltı səsi ilə təqib edən şəxsin otuz metr arxada qalmış daş hasardan atıldığını eşitdi. İmpulsiv qorxu bu dəfə əksinə onun sinir sisteminə yüksək akselerasiya

verdi. Vaşaq tək pəncələri üzərinə atılıb, iri addımlarla qaçmağa başladı. Özü də bilmirdi hansı istiqamətə qaçır. Krasovkası, yağış kiçik meşənin torpağını yumşaltıdığından, lil içində idi. Bununla belə durmadan, arabir geriyə boylanırdı ki, bu da təqib edənlə şikar arasındakı məsafəni xeyli azaldırdı.

- Ay axmaq , bəlkə heç daha sənin dalınca qaçmır,...yaxşı bax. –deyə daxilindəki müdrik SƏLİM həyəcan təbili ilə, onu yenidən geriyə dönməyə məcbur etdi. Geridə arxasınca qaçan təqibçi yox idi. Arxaya baxa-baxa qaçdığından ayağı çuxurların birində burxulub, üzü üstə nəm torpağa sərildi. Ləngimək olmazdı, əmin idi ki, ən azı 60-70 metr qət etmişdi. O saniyə qalxıb yenidən sürət verdi. Bu dəfə gözündən qaçırdığı önünə çıxmış iri şam ağacına ilişdi. Kaş qorxulu yuxu olaydı, oyanaydım...real dünya ilə qeyri-real düşüncələri birbirindən seçmək olmurdu. Yenidən ani baxışla (hərəkətdə ikən) geriyə göz gəzdirdi. Bu dəfə yumşaq bir şeylə toqquşdu.
- Aahhhhhh....- önündə peyda olmuş qara köynək, qara cinsdə olan Murad, əlindəki armaturla Səlimin alnını parçalayır. Sən demə zavallı Səlim həyəcandan çaşıb, eyni ərazini dövrə vururmuş.

***     ***     ***

Meyiti sürüyərək ən gözdən uzaq yerə daşıyır. Mobil telefonunun işığını yandırmaq fikrinə düşsə, də tez bu fikirdən daşındı. Qaranlıqda diqqət çəkmədən, mümkün qədər tez vaxt ərzində cinayət yerindən uzaqlaşmaq lazım idi. Meşənin içi ilə

Səlimin torpağla təmasdan çırpıldaşan, ziqzaq şəklində altındakı torpaqda iz qoyan meyitini ağır-ağır arxasınca çəkirdi. Öndə şam ağacları bir qədər seyrəldiyi yerdə, köhnə məişət texnikalarının tullantıları və lazımsız dəmir-dümür qalaqları gözünə sataşdı. Bir qədər sağda o qədər də dərin olmayan yarğan uzanırdı. Çox güman əvvəllər istifadə olunmuş kiçik təyinatlı suvarma kanalının qalığı idi. Buludların səma cisimlərini bağlaması yarğandan yarım metrə üzə çıxmış iri bir materiyanın nə olduğunu aydınca seçməyə imkan vermirdi. Meyitin ayağını buraxıb, həmin yarğana yaxınlaşdı. Məlum oldu ki, yarğanın içi zir-zibillə doludur. Həmin iri materiya isə yalnız skelet dəmirləri qalmış Raf markalı mikroavtobus idi. Kuzovu (çox güman) nəvaxtsa iri yük maşını ilə qarşı-qarşıya toqquşduğundan ön tərəfdən xəşil şəkildə idi. Tünd rəngli həmin mikroavtobusun avadanlıqlarından  əsər əlamət tapılmazdı. Maşının arxa və yan (şüşəsiz)qapıları pərçimləndiyindən maşın cəsədinə yalnız əzilmiş olduğu hissədən girmək olardı, əzilən yer bir növ pilləkan formasını almışdı. Həmin yerə ayağını qoyub maşının içinə boylandı. Ayağı sovet qeydiyyat nömrəsi lövhəsindən sürüşdü. Müvazinətini bir təhər saxlayıb, önə boylandı ki, atılmış maşının içində nə olduğunu müəyyən etsin. Başını dürtən kimi burnuna kəskin nəcis iyi gəldi. Milçəklərin də sakit tonla vıcıldaşmasını eşitdi. Bilirdi ki, meyiti qazmağ əlavə vaxt itkisi və baş ağrısı olacaqdı. Ancaq onu hardasa müvəqqəti gizlədə bilərdi. Rafın içi isə bunun üçün ən ideal yer idi. Onsuz da meyit parçalanma prosesi zamanı, kəskin qoxu versə idi belə, həndəvərdə dolaşanlar, yaxınlıqdan keçənlər, iyin Rafın  içindəki tullantılardan və ifrazatdan gəldiyini güman edəcəkdi.

Rafın ön çərçivəsindən çıxıb, torpağa düşdü. Meyitin üstünə gedib, bu dəfə onu başqa yöndəmdə qaldırmağa çalışdı.Meyitin əllərini qaldırıb, qoltuqları arasına girdi, onu qucaqladı, sanki, yolda dili qatlanmış birini saxlayırdı. Özü arxaya addımlaya adımlaya, çətinliklə də olsa Səlimin o qədər də ağır olmayan meyitini, Rafın təbiətin yaratdığı (daha doğrusu qəzanın nəticəsi olan) piləkanlarına kimi daşıdı. Meyitin üzü Muradın arxasına baxırdı. Özünü qaranlıqda o qədər itirmişdi ki, ağlına belə gəlmədi ki, alnı dağılmış Səlimin qanı üstbaşını yaxşıca bulayacaqdı. Axı əsas məsələ cinayət yerindən izsiz-tozsuz uzaqlaşmaq idi.

Sanki arxadan qulağına isti hava üfürdülər. Sonrasını isə yalnız meyiti əlindən buraxdıqdan bir neçə saniyə sonra hiss etdi. Öldüyünü zənn etdiyi Səlim, qulağını zəif də olsa elə dişlədi ki, az qan itirmiş olsaydı, bəlkə (daha güclü dişləməklə) Muradın qulağını yerindən qoparmış olardı. Dəhşətli ağrı hissi bütün beyninin sinirlərini oyatdı. Murad qışqırmamaq üçün baş barmağını ağzına salıb ön kəsici dişlərilə möhkəmcə sıxdı.

Səlim çox zəiflədiyindən yerdə sərilib qalmış və boğazına bıçaq dirənmiş qoyun kimi yazıq baxışlarla ölməməyin son əlacını axtarmağa çalışırdı.

- Sən də həmin əclaflardansan? – Sən də ölməli əclafsan. Məni gələcəyə aparmağınız baş tutmayacaq. Qardaş....-deyə cümləsini tamamlamaq istəyirdi ki, ani olaraq beyninin impuls mübadiləsi dəyişdiyindən başqa (daha əmin tonla): - Sizin hamınızın axırı çatıb, Sizi bir bir yox edəcəm. Ən yaxşısı isə bizim milləti xəbərdar edəcəm.

Yazıq camaatın sizin məxfi agentliyin hoqqalarından xəbəri yoxdur.

Səlim şokdan hələ çıxmadığından bu, onsuz da alim adamı da çaşbaş qoya biləcək söz yağışından bir şey anlamayıb, öz ölümünü gözləyirdi. Artıq səsləri də qulaqları eşitmirdi. Sadəcə transformator səsinə bənzər boğuq uğultu var idi. Nəhayət Muradın ağzının bağlanması və dodaqlarının daha açılıb-yumulmamasından başa düşdü ki, Murad çıxışını bitirdi. Həyatının sonuna bir neçə saniyə qalıb. Murad yaxınlıqdan iri bir mişar daşı qaldırıb Səlimin paralizə olunmuş bədəni yaxınlığında başı hündürlüyündə qaldırdı. Üstünə atacaqdı ki,:

- Hey, Siz orda neylirsiz....-qalın kişi səsi eşidildi...- Hə, səni deyirəm, sənin burda nə işin var? – Murad heç nəzərə almamışdı ki, belə iri, tərk edilmiş ərazidə qaçqınlar məskən sala bilər. Sən demə yaxınlıqda bir neçə ailə qanunsuz tikilidə yaşayırmış. Çox güman meşənin qurtaracağında idi. Naməlum şəxs qarşı tərəfin heç bir reaksiya vermədiyini görüb, yad adamları qanunsuz da olsa legitim ərazisindən çıxarmaq üçün Murada tərəf addımladı. Murad həmin adamı vecinə almayıb kubiki var gücü ilə başından aşağı Səlimin üstünə atdı. Bayaqdan ölümünü sakit şəkildə gözləyən kimi görükən Səlim sən demə anında manevr etmək üçün güc toplayırmış. Vaxtında sağa tərəf burulmasaydı döş qəfəsi və çox güman ki, çənəsi darmadağın olacaqdı. On metrlik məsafədə olan naməlum şəxsi qarşısındakının digərinin həyatına qəsd etməyə çalışdığını görüb üstünə cumdu:

- Dayan, dayan dedim sənə Murad əlacsızlıqdan aradan çıxmalı oldu,...soyuqqanlığını itirmədən armatur əlində (armaturu – cinayət alətini və əsas dəlilini heç bir vəchlə yerə atmaq olmazdı bu hadisələrin gedişini alovlandıra bilərdi.) gəldiyi yerə tərəf daban açdı. Naməlum adam da elə bunu istəyirdi. Onsuz da özü də qorxduğundan potensial qatilin ardınca qaçacaq axmaq deyildi. Qəsdçinin hasarı aşdığına (enən ayaqqabı səslərindən ) əmin olub, qan axmadan, huşu getmiş və ya ölmüş Səlimin qarşısında əyildi.

*** *** ***

Evin qapısından içəri keçən kimi krasovkalarının altını dəhlizin girişindəki nimdaş əskiyə sildi. Ryuk-zakı çiynindən sağ əlinə aşırıb, asılqana keçirdi. Krasovkalarını həmişəki kimi səfərdən sonra ilkin baxışdan keçirib, bağlarını boşaltdı və bir kənara qoyub, usanmış ayaq barmaqlarını xırçıldatdı.

Dəhlizin divar kağızları o qədər də köhnə üslubda olmasa da, qışda evin yaxşıca isidilməməsi səbəbindən yaxşıca nəmlənmiş və qabarmışdı. Qəhvəyi rəngli, həyatda olmayan sürrealistik palma yarpaqlı güllərin həkk olunduğu bu primitiv divar kağızları digər otaqların interyeri ilə qram qədəri ayaqlaşmırdı. Oboyların qurtaracaqları xüsusi yapma daşlarla bəzədilmişdi.

Başının üstündəki dəftər ölçüsündə olan, mənzərə rəsminin çərçivəsinin əyri durduğunu gördü. İki çiyin arasında olan planeti bir qədər geri verib, gözəyarı şəkildə rəsmin mövqeyini tarazladı. Nədənsə yeməyin iyi gəlmirdi.

Bir başa mətbəxə keçdi.Anası həmişəki kimi arxası ona, yeməyi hələ təzə bişirməyə başlamışdı. Üzünü çevirmədən:

- Yenə başlama ki, niyə yemək hələ hazır deyil...Özün bilirsən pomidor-badımcan dolması beş-on dəqiqəyə bişən deyil.

Sanki heç mətbəxə girən ciyər-parəsi, tutqun qara dumanlı həyatının, qara buludlarını qovan yegənə bəşər qüvvə- oğlu İmran deyildi. İmran ailədəki böyük problemlərin fəsadları sonrası anasının soyuqqanlı bir xanıma çevrildiyini, xasiyyətinin birə-beş dəyişdiyini bütün varlığı ilə duymuşdu. Son vaxtlar ümumiyyətlə İmranla az danışar, İmranın işdə başına gələnlər haqqında söhbətlərinə ümumiyyətlə heç bir isti-soyuqluq verməzdi. Məsələn, iki il bundan qabaq anası xəbər tutsa idi ki, oğlunun sevdiyi qız var, o qızı ilkini olan İmrana almaq üçün olmazsızın işlər görər, pullu-pulsuz dəridən qabıqdan çıxardı. İndi isə, ona oğlunun Ayan adlı iş yoldaşını sevməsi barədə artıq bir ay məlum olmasına rəğmən, İmranın qız haqqında şərhlərinə saymazyana yanaşardı. Mütləq neytralitet. Nə tənqid edər, nə də oğlunun bu dünyəvi eşqinə sevindiyini yalandan da olsa sözlə ifadə edərdi.

Atası da eləcə. Sanki pozitiv ata-anasını paralel dünyadan neqativ valideynlərlə əvəz etmişdilər. Hər gün işdən saat onda qayıdır, təkbaşına mətbəxdə əlinə keçəndən yeyir, çaydan sonra bir boşqab günəbaxan tumu götürüb, qonaq otağında televizoru həvəssiz şəkildə seyr edərək, yarısını mədəsinə yarısını isə qalıqlar üçün nəzərdə tutulmuş külqabıya boşaldırdı. Ata-anasının gözlərindən həyat yanğısı ünvanlı şəkildə

köçmüşdü. Elə bil göz bəbəyi daha gördüklərini əks etdirmirdi, qayığ yelkəni tək bəyaz və yorucu idi.

İmran da adeqvat çıxış yolu kimi, belə yaşayış şərtlərinə alışmışdı artıq.

Acından mədəsi muğam oxuyurdu. Soyuducunu açıb, bir sərin xama çıxardı, qapağını açıb, ağ məzəli kremin içinə bir çay qaşığı basıb, (bu dəfə əlinə qatı bir xama keçmişdi) o biri ilə qapaqlı çörək qabıdan iki fal çörək dartışdırdı, öz otağına keçdi. Kompyuter masasından toz basmış kitabları və qeyd dəftərlərini götürüb çarpayısının üstünə tulazladı. Rahat yeyə bilmək üçün klaviaturanı keysin üstünə qoydu. **Disk "D"-**də yerləşən **DVD** konvertasiyası olan sıxlaşdırılmış *.avi kodekli film seçib, smetanı yeyə yeyə, evə qayıdarkən onu boğan həmişəki melanxolik fikirlərdən müvəqqəti kənarlaşmağa çalışdı.

Boşalmış mini vedrə formalı xama qabını zibil yeşiyinə atmağa gələndə anası hələ də arxası İmrana yemək bişirməkdə idi. Yarım saat keçsə belə, dolma hələ də hazır deyildi. Heç dolmanın reyhan və bolqar bibəri ətirli o möhtəşəm qoxusu belə dəymirdi burnuna. Onsuz da mədəsi daha tox idi. Başını bulayaraq anasının yanından keçib, yenidən otağına qayıtdı.

"Lazımı Əşyalar" adlı qorxulu filmə çoxdan bəri baxmaq istəyirdi. Blurey formatında 6 qiqabaytlıq bu filmi torrentdən 3 günə yükləmişdi. Özü naşükür insan olmadığından torrentdən istənilən şeyi yükləyəndən sonra proqramın yükləmə siyahısından silməyib, həmin filmin başqalarına paylanması üçün ən azı 3-4 gün gözləyərdi.

Film çox maraqlı və çəkici olmasına rəğmən, Ayanın son günlər içində gizlətdiyi "naməlum naməlumlar" onu çox

narahat edirdi. Nə qədər israr etdisə, bir o qədər də Ayandan təpki gördü. Ayan hər dəfə bu söhbət düşəndə mövzunu yumşaq şəkildə dəyişərdi. Kifayətdir!-deyə Media Player Classic-in X düyməsini basıb, ekrandan yığışdırdı. Mobil telefonunu götürüb Ayanın nömrəsini yığdı.

- Alo...Ayan bu dəqiqə evə zəng vuracam...yox yaxşısı budur özün bizə zəng vur.Axı sizinkilər artıq evdədi. Gözləyirəm zəngini – deyə onsuzda dənəylə sayılacaq konturlarına qənaət etdi.

Dəhlizə yürüyüb, qapının çərçivəsinə paralel şəkildə divardan asılmış distansiyon telefonu götürdü.

- Salam.
- Salam.
- Necəsən?
- Belə də ...evləri yığışdırırdım. Sənə neçə dəfə demişəm evə zəng vurmayasan, əlacsızlıqdan mətbəxin qapısını bağlayıb orada pıçıltıyla danışıram. Üstəlik hamımız təzə gəlmişik –deyib xəttin o biri ucundan eşidiləcək tonda udqundu. İmran durmadan Ayanın ağzından qaçırdığını daha müfəssəl aydınlaşdırmağa cəhd etdi:
- Hardan gəlmisiz? Bəs deyirdin bu gün heç yerə getməyəcəkdiz?-deyə aqressiv şəkildə soruşdu. Ayan artıq gizlətməyin mənasız olduğunu bildi.
- Xalam gildən gəlirik.
- Hansı xalan gildən...O iki qızı olan.
- Hmm... Bilirsən sənə bu vaxta qədər deməmişdim. Lazım bilmirdim deməyi...İndi isə görürəm ki, bir quyudan ki hər gün su çıxarırsan, içinə pişik ölüsü düşdüyü axır əvvəl

aşkar olur. Əslində onların bir oğulları da var idi, daha doğrusu var, sadəcə il yarıma yaxındır ki, oğullarından əsər əlamət yoxdur. Nə ölüsünü tapa biliblər nə də ki, dirisini.

- Bəs bu vaxta qədər məndən niyə gizlədirdin ay axmaq?
- Bəsdidə İmran, nə olsun yaxın dostumsan...axı mən öz ailə problemlərimizlə sənin başını ağratmaq istəmirəm...-İmran cümləsini tamamlamağa imkan vermədi.
- Sənə min dəfə demişəm oğlanla qız dost olmur. Mən səni sevirəm. Sən mənim Leylimsən, dost-most sonrakı pillədə gəlir...-yenidən əvvəlki söhbətə qayıtdı- həmin uşağa nə olub ki?

- Bilirsən necə çox istəyirdim Ramizi, bacıları ifritənin dal ayaqlarıdı. Özlərini həmişə boğan olublar. Sözün düzü, yalan danışmamaq üçün deməliyəm ki, xalama yaman çəkiblər. Xalamın əri isə çox səxavətli və xoş təbiətli insandır. Sən təsəvvür elə atası dediyim tip insandırsa, Ramiz onun on beş dəfə yaxşı forması idi, çox üzüyola uşaq idi. O mənə doğma qardaşımdan yaxın idi. Universitetə hazırlaşanda onların evində düz üç ay qalmışdım...-deyə ürəyinin dolu olmasından, heç İmranın sualını eşitməyib ürəyini boşaltmağa çalışdı.
- Ətraflı danış uşağın başına gələnlərdən!
- Ramizi axırıncı dəfə keçən ilin yanvarında, bayram günündə görüblər. Anası – yəni xalam Almaz onu bir yetim uşağın evinə (yazığı gəlib,) göndərib ki, insan qayğısından məhrum olmuş həmin kimsəsiz cavana yeni

il yeməyindən aparsın. Almaz xalamın əri çox uzaqgörən insan idi. Hər dəfə deyərdi ki: “Bu ...(adı yadımdan çıxdı) uşaqdan gözüm su içmir”.  Hələ yaxşı sözü də var idi, deyirdi ki: “Məzlum yetimdən çox yaxşılıq umma!”. Xalam isə, Allah ona uşağı göndərən yerdə dilini qurudaydı, (başqasına yazığı gəlməyi ucbatından oğlunu bada verdi), uşaq o göndərəni, yoxa çıxdı. Əvvəl Ramizin qayıtmadığını görüb, elə biliblər ki, ya həmin yetim onu evinə dəvət edib, ya da yeməyi mənzilinə çatdırandan sonra tez çıxıb aradan həyətə. Sən saydığını say gör fələk nə sayır. Ramiz qayıtmaq, bilməyib ki, bilməyib. Şübhəli danışan yetimin evinə gedəndə, artıq narahat olmuş Ramizin valideynlərinə and-aman edib ki, guyam Ramiz onun evinə ümumiyyətlə gəlməyib. Məhləni, yaxın məhlələri, kafe,bar,restoranları, (əxlaqsız yuvalara kimi) hər yeri hələk-vələk ediblər. (Ramiz həmin gün küçədə görən bir nəfər şahid də tapılmayıb) Sabahı gün açılan kimi, polisə xəbər veriblər və yetimin evində axtarış aparmaq üçün prokurorluqdan sanksiya tələb ediblər. Sanksiya da alıblar amma nə xeyri, həmin yetimin evində bir iz belə tapa bilməyiblər. Təhqiqatçılar həmin yetimi xeyli sorğu-suala tutublar. Yetim onları inandırıb ki, Ramizin heç sifətini görməyib. Raportlarında da qeyd ediblər ki, ekspertizanın nəticəsi kimi, Ramiz bu evdə ümumiyyətlə olmayıb. Amma Vüsal dayı (xalamın yoldaşı) yetimin doğrunu danışdığına çox şübhəli yanaşırdı. Elə məqam olmuşdu, yetimi Vüsal dayının əlindən güc-bəlayla almışdılar. Bir ay keçdi... işə daha

baxmadılar. Vüsal dayı and içmişdi ki, nəyin bahasına olursa olsun, Ramizin qatilini və ya onu əsir saxlayan adamı (əslində bu versiyaya heç özü də inanmırdı) tapıb onu ya qanunla, ya da ki, yazılmamış ədalət prinsipləri əsasında cəzalandıracaq. Yazıq kişi, uşağın qırxı çıxmamış miokard-infaktdan dünyasını dəyişdi.

- Allah rəhmət eləsin...Bir neçə dəqiqəyə aylardı məndən gizlətdiyin illərin söhbətini bölüşdün. Bəs nəyə görə əminsən ki, Ramizin itməyi həmin yetimlə bağlıdır.
- Dediyim kimi, həmin yetim Vüsal dayı deyəni özünü çox şübhəli aparırdı. Dayı onu bir neçə dəfə güdmüşdü. Qapını həmişə bağlı saxlamağa çalışırdı. Bağlıyanda da açarı burub ətrafa elə göz gəzdirirdi ki, sanki içində milyard manat dəyərli əmanət olan seyfi bağlayır. Həm də bir-iki aydan sonra gözlənilməz şəkildə həmin mənzili tərk etdi. Polis ondan (xalamın təkidi ilə ) şifahi izahat alanda, mənzili tərk etməyini onunla izah etdi ki, onu Ramizin ailə üzvlərinin təqib etməsi bezdirib, qonşularının ona pis gözlə baxmağı rahat həyatına son qoyub. Məcbur olub başqa yerə köçməyə.
- Sən özün həmin yetimi görmüsən?
- Yox görməmişəm. Amma deyirlər sifətdən elə manyaka oxşayır, köpəy oğlu. Onu görüm qara taxtada qalsın. Bircə o əclafın evinə girmək olsaydı...Əminəm Ramizlə bağlı hansısa izə çıxmaq olardı.
- Sənin xalangil hansı ünvanda qalır?
- Indikini deyirsən yoxsa oğlu itgin düşməzdən əvvəlki ünvanı?

- Köhnə adresi.-deyə Ayanın axmaq sualına qıcıqlandı.
- Qara Qarayev metrosunun yaxınlığında, İMPERATOR şadlıq sarayının arxasındakı doqquz mərtəbəli bina. Birinci blok, səkkizinci mərtəbə.
- Bəs “yetim” hansı mərtəbədə qalırdı?
- Doqquzuncu mərtəbədə- Ayanı sanki birdən silkələdilər. İmranın israrlı sualları onu düşünməyə vadar etdi.- ...axı bunlar sənin nəyinə lazımdır, İmran? Niyə soruşursan.
- Olar əvvəl sualıma cavab verəsən.
- Doqquzuncu mərtəbədə (həmin blokun).

Xəttin o biri ucundan dəftərdən səhifəni qoparan zaman çıxan səsi eşidib, hiss etdi ki, İmran dediyi ünvanı özündə qeyd edirdi.

- İmran...İmran...-deyə artıq səs telləri həyəcandan xırıldaya-xırıldaya- İmran, sənə and verirəm, birdən çaşıb həmin yerə getmək istəyərsən. – çay şırıltı səsləri müşayəti ilə axdığı kimi göz yaşları da ah-vay səslərinin çələngində qarşı tərəfin ürəyini dəldi – qardaşımı itirdim, indi də ən yaxın dostumu itirmək istəmirəm...Mənim hissiyatım çox güclüdür. Bilirəm ki, o yaramaz çox təhlükəli adamdır. Nə olar qurbanın olum axmaqlıq eləmə. Dostluğumuzun xətrinə
- Sən nə qədər demişəm. Oğlanla qız dost olmur. Sən məni sevməsən də olar, ancaq mən sənin dərdindən necə deyirlər dəli divanəyəm. Narahat olma elə bu gün sənin iztirablarına son qoyacam.
- Yox qurbanın olum...getmə ora İmran...Qurbanın olum.

Sonuncu cümləni deməyə heç ehtiyac qalmadı. Onsuz da İmran artıq dəstəyi asmışdı. Çöldə narın yay yağmuru yağmasına

baxmayaraq, əyninə idman pencəyi belə keçirməyib, qısa qol futbolkayla evi tərk etdi.

***　　***　　***

Vağzalda 1A-ya minib Qara Qarayev metrosunun yolunun üstündə düşdü. Deməli oriyentiri bilən qədəri, köhnə Almalının döngəsi deyil, ondan əvvəlki kəsişmədən sağa dönməli və 150-200 metrə yaxın məsafə getməli idi.  Döngədən burulan kimi yaxınlıqda olan  gül dükanına daxil olub, səbirsiz şəkildə İmperator şadlıq sarayının yerini soruşdu. Düz get, deyə gülsatan İmranı başından elədi. İmranı sifətini turşutsa da bir söz demədi. On metr getməmişdi ki, yolun sağ tərəfində Jalə gözəllik salonundan biri orta yaşlı, sarı saç, qaşları Neftçilər körpüsünün altında duran şortumlar kimi nazik və kobudcasına tatuajlanmış, kərkədan baldırlarını əyninə keçirdiyi qara (dam-dar) “altıncı sinif” reytuzla formalara və bucaqlara həssas kişilərin gözünə soxmağa çalışan (reytuzu necə deyərlər rajokla geyinmişdi)  saç ustası çıxıb çox güman müştərinin başını yenicə quruladığı məhrabanı salonun divarından dəmir dirəkləri arasına olan balaca zivədən asdı.  Yaxınlıqda yolun əks tərəfində səkidə uzanmış bomjdan başqa bir kəs yox idi. Utanmaz-utanmaz, İmranın keçdiyini görüb, guya yerə düşmüş sancağı qaldırırmış kimi dombalıb, açıq sinəsini tam şəkildə İmranın gözlərinə həvalə etdi. Heç çimərlikdə belə lüt sinə görmək olmazdı. Nəisə bu sancaq məsələsi çox uzandı- deyə hiddət və nifrət dolu hisslərlə özlyündə fors üçün yaşı keçmiş bu yüngül təbiətli qadının hərəkətini şərh edərək,“çoxlarının qapalı bardel” saydığı gözəllik salonunun önünə çatdı. Nəhayət sancağ yerdən

qalxdı. Həmin bərbər xanım İmrana baxıb primitiv  hisslər oyada biləcək ehtirasla gülümsədi. Doğrudan da yalnız sima və daxili gözəlliyinə görə başqaları ilə rəqabətdə uduzan xanımlar, daha çox ən asan yola ataraq, onsuz da istənilən qadına xas olan, kök və ya arıq, yaşlı və ya cavan fərq etməz, Allahverən  ancaq ərlərindən başqlarının  sərəncamına haram qılınan estetik bədənlərindən suistifadə edirlər. Belə ki, həmin “sərbəst” bərbər qadının üz cizgiləri çox qaba idi. Almacıq sümüklərinin iri olması, onun “dağdan düşənlərdən” olduğundan xəbər verirdi. Üstəlik alnı da (ağardıcı kremin nəzərə çarpacaq dərəcədə izafi sərfiyyatına rəğmən) qara xırda ləkələrlə əhatələnmişdi. Sanki həmin xanım uşaq ikən aşsüzənlə “zaqar” almışdı. Kim bilir, bəlkə bu xanım gülümsəməyib,ağzını açmasaydı, ən yaxşısı, ehtiraslı geyimi və çılpaq zina yerləri ilə kənddən şəhərə yenicə gəlmiş “ac” kişiləri ovlaya bilərdi. Ancaq qadının gülümsəyən zaman ön qızıl dişlərini nümayiş etməsi, İmranın ürəyini lap bulandırdı. Bu qadına çox tamaşa etməklə ümumiyyətlə qadınlara olan maqnit hissindən məhrum olmaq olardı.

Bərbər qadın İmranın onun demək olar ki, çılpaq bədənini görcək ağzının suyunun axmamasını görüb, gülümsəməyi dayandırdı və bir söz demədən, şüşəbənddən içəri daxil oldu.

“Dünyada ən axırıncı iş yeri parixmaxerlik olsa belə, qızımı (əlbəttə əgər gələcəkdə olsa) heç bir halda gözəllik salonunda – bu “qapalı əxlaqsız yuvada” işləməyə qoymaram”-deyə fikirləşirdi ki, birdən içəridə olan qadınların, iki digər bərbər xanımın və başına salafan keçmiş (yəqin ki, həmin –çox güman-tələbə qızın başına rəng qoyulduğundan)  müştərinin İmrana şüşə qapılardan diqqətlə və maraq dolu nəzərlərlə baxdığını

gördü. Özündən asılı olmayaraq yerində dik qalıb, məsələni aydın etmək üçün qarşı tərəfə baxdı. Ona əvvəl elə gəlmişdi ki, bayaq sancaq qaldırmaq adıyla əyilən ortayaşlı bərbər qadın yüngül təbiətindən irəli gələn nəfsani tələbatlarını ödəmək məqsədilə ona gülümsədi. İndi isə aydın oldu ki, məsələ heç də göründüyü kimi bəsit deyil. Həmin çirkin sifət bərbər şüşə qapılara ən yaxın durmuş qadının qulağına nə isə pıçıldadı. İkinci bərbər, 25-27 yaşlarında cavan, girdə sifət, refle saçlı bir gözəllik qiymətləndirmə sistemi ilə 3 (kafi) verilə biləcək bir qadın idi. Heyf ki, İmran dodaqlardan oxuya bilmək istedadına malik deyildi. Eşitdiklərinə inanmayırmış kimi, "nə danışırsan...ola bilməz...de Vallah" tipli baxışlarla həmkarına qaşlarını çatlatdı. Birinci bərbər xanıma ona təsdiq olaraq baş hərəkəti etdi və yenidən nəisə qısa bir şey mırtıldadı. Kresloda oturan cavan müştəri xanım da sanki serialın növbəti seriyalarından birini müzakirə edirlərmiş kimi salafanlanmış başını onlara tərəf döndərib, xırda detalları belə qaçırmamaq üçün diqqətlə qulaq asırdı.

İkinci – resepient bərbər xanım – yuxuda ikən hündür mərtəbədən yıxılanda ruh bədənə qayıdaraq insan necə dik atılırsa, ona deyilənlərinə fərqinə varıb, özünü itirdi. Nəzərləri İmrana qayıtdı. Gözləri birdən-birə suyla doldu, həyəcandan əlində tutduğu peşəsinin sehirli çubuğu olan - darağı yerə saldı. Sonra bütün nəzərlər İmrana yönəldi – kimisi böyük gözləntilərlə, kimisi üçüncü tərəfin isti simpatiyası ilə, kimisi sadəcə növbəti yeni hadisənin canlı şahidi kimi.

İmran ümumiyyətlə çaşdı. Yadından çıxdı ki, bu yerlərə niyə gəlmişdi. Yəni onu tanıyırdılar. Axı o Qara Qarayevə on beş

yaşından bəri (on birinci sinifdə oxuyanda aylıq üzgüçülük rüsumu burada daha sərfəli olduğundan  məhz Qarayevdəki su hovuzuna gəlirdi)  bir dəfə də ayaq basmamışdı. Yeniyetməlik dövründə isə özünü tanıyanı, çox çirkin olduğundan qızlar ondan uzaq durardı. Bəlkə onu kiminləsə səhv salıblar. Elədir ki, var onu kiminləsə səhv salıblar.

Birinci bərbər xanım yenidən ölüm dolu qızılı dişləri ilə gülümsəyərək əli ilə İmranı içəri çağırdı və artıq göz yaşı tökən ikinci bərbər xanımın çiynini sıxdı.

Yox...Belələrinin caynağına keçdin çətin ki, onlardan yaxa qurtarasan. Lap maraqdan ölsəm belə içəri girməyəcəm. Hər şey plan üzrə getməlidir. Ayanla tezliklə nişanlanmalıyam. Dayan-dayan, bəlkə bu elə Ayan tərəfindən hazırlanmış bir yoxlamadır. Bir növ sevgiyə sədaqət testi.  Yox qəti mümkün deyil. Ayan hara, belə yüngül rəfiqələri olmaq hara, tam cəfəngdir. Ən yaxşısı mümkün qədər tez bu potensial günah mənbəyini tərk etməkdir- deyə fərqli fikirlər metamarfozasının məntiqi nəticəsi kimi ayaqlarını yenidən işə salıb, çevik addımlarla yuxarı istiqamətdə hərəkəti davam etdirdi.

Arxaya çevrilməsə də, şüşə qapının açılma səsindən kiminsə çölə çıxıb, onu baxışları ilə yola saldığını hiss etdi.

Xeyli yol getmişdi ki, kəsişmə asfalt yola çatdı. İmperator şadlıq sarayı, gözəl iki mərtəbəli eksteriyerlə sağda onun sərəncamında idi. Qalmışdı bircə ...əşi nə bircə...onsuzda yalnız bir doqquz mərtəbə var türkün məsəli İmperatorun dalında-deyə bir qədər əvvəlki fikirlərdən ayılmaq üçün özüylə məzələnməyə çalışdı.  Binanın məhəlləsinə ayaq basan kimi, Çernoblın tərk edilmiş yaşayış sahələrindən birinə daxil olduğu hissi yarandı

İmranda. Gözəl oyun meydançası, nərd atmaq üçün xudmanı üstü (kustar şəkildə köhnə şiferlərlə) örtülü köşkü, uşaqlar üçün yellənçəkləri olan məhəllədə bir nəfər olsun belə canlı gözünə sataşmadı. Aha. Bir ağsaqqal dayı mayka ilə balkona çıxdı və qollarının balkonun taxta dirəyinə söykəyib, papiros alışdırdı. Artıq radiasıyadan qorxmamaq olar. Deməli nüvə zad partlayışı olmayıb.

Birinci girişə keçib, işləmədiyinə görə liftə liftin yaradanın əcdadlarına ləhnət yağdırıb, piləkanları birbir ayaqla qalxmağa başladı.

Blokun çölə baxan pəncərələri olmadığından, günün belə gur işığında belə pilləkanları zirzəmi qaranlığına qərq edirdi. Üçüncü mərtəbədənin pilləkanlarından sonra isə ümumiyyətlə heç bir şeyi görmək olmurdu. Bəs bu blokun mənzil sakinləri işdən gecənin qaranlığında gəlib, kor-koranə doğma mənzillərinə necə qalxırdılar. Korlar kimi toxunuş hissiyatı ilə?! İmranın halı dəyişirdi. Hərbi xidmətdə qulyabani söhbətindən sonra isə ümumiyyətlə qaranlığa nifrət edərdi.

- ...Miqrasiyadan spravkeyi, metrikeyi isteyrlər –deyə Gürcüstan azərbaycanlısınızı ləhcəsi eşidildi.- Yaxşı mən ta gedeyim- sözlərinin müşayəti ilə birinci mərtəbədən qəribə heyvan səsil gəldi. Həmin heyvan görünür çox təngnəfəs, qan-təlaş içində olduğundan çığırtısını da çıxarmağa tam gücü çatmırdı. Çığırmaqla səsini kəsməyi bir oldu. Elə bil başına da nəyləsə vurdular (ət ətə şillə səsi eşidildi)-

Gürcüstanlı oğlanın iri ayaq atışlarıyla pilləkanları iki –iki qalxdığını eşitdi. Həmin səs də sinxron olaraq yaxınlaşırdı.

Deməli həmin heyvan idisə, nəidisə əlində və ya dalınca gətirdiyi, gürcüstanlı oğlanın  hər zaman yanında idi. Bəlkə də qulağına eşidilirdi bütün bunlar, bəlkə əslində pilləkanları heç kim qalxmırdı. Sadəcə  dünən cəmi 3 saat yatdığından yaranması adi hal olan halüsunasiyalar da ola bilərdi. İkinci mərtəbəni də adladıqdan sonra üçüncü mərtəbənin alt piləkanlarında durub nəfəs ötürdüyü aydın oldu. Çox güman əlində ağır bir şey vardı. Yəqin ki, mərtəbələri adlayan zaman tərlədəcək dərəcədə ağır bir şey. Beşə kimi sayılacaq tezlikdə, tənəffüsünə xitam verib üçüncü mərtəbənin piləkanlarına doğru qalxdı.

İmran sadəcə yerində donub qalmışdı. Gün işığının özünü boğub-sıxıb liftin yanındakı xırda aradan içəri salmasaydı, yəqin ki, Gürcüstanlı oğlan İmranın xəbəri olmadan onunla toqquşacaq və İmranın ruhunu bədənindən qovacaqdı. Xəfif günəş işığı Gürcüstanlının siluetini görməyə imkan verdi. Gözləri istənilən yeniliyə həssas Gürcüstanlı oğlan da onu gördü.  Gövdəli bir cavana oxşayırdı və hər iki əlində nəisə tutub yenə də iti sürətlə bir piləkan iki piləkan  az qala yuxarı hoppanırdı. İmrana lap yaxın duranda İmran bir qədər büdrədi. Hələ də gördüklərinin  real və ya qeyri real olduğuna tərəddüd edirdi. Bircə arzu edirdi ki, qeyri-real olmasın. Çünki belə sayıqlamalar, qorxulu yuxular zamanı hər zaman üstünə gələn subyekt heç də ona xoş niyyətlərlə yaxınlaşmırdı. Əksər hallarda çevik hərəkətlə onun döş qəfəsindən xəncəri və ya bıçağı sapına kimi soxub, bu yolla onu tər qan içində yuxudan oyadırdılar. İndi də İmran özünü olmasızın itirmişdi. Axı tanımadığı, bilmədiyi biri onun

üstünə az qala qaçırdı. Çevrilib bir əlini pilləkanlarla perpendikulyar şəkildə ta doqquzuncu mərtəbəyə kimi burulub-uzanan taxta dirəkdən tutub, o biri əlini hər ehtimala qarşı yumruğ halına gətirdi, sayıq duruş vəziyyəti aldı. Gürcüstanlı gördü ki, bir dəfə də atdansa düz İmranın üstünə dırmaşacaq. Ona görə İmranla özünü ayıran ən son piləkanın altında durub, dilləndi

- Ə, qağa, bu qaranlığda yuxarı çıxeyrsan, üstəlik liftə işdemeyr, niyə ÇITMA VURMURSAN?

İmran hər şeyə hazır idi. Hər cür hadisələrin hər cür variantlarını məntiqi təhlil edən biri idi. Özüvü ələ al, sakitləş, dərindən nəfəs al, sinir sonluqlarını sərbəst vəziyyətə gətir, 2 x 7 = 14, bəs, bəs...yox o bu SANCTUM...xeyr, belə adda...yox bu adda maddə yoxdur Mendeleyev cədvəlində, İmran özüvü ələ al, hər şeyi məntiq çərçivəsində təhlil et. Səmərəli düşün, səmərəli nəticə çıxart!

Hər zaman elə olur ki, təşkil olunmasına aylar hətta illər sərf olunmuş qətli və qəsdləri xırda qarışına kimi hesablayan, saniyə bə saniyə, ölçü bə ölçü, addım-bə-addım sinxronlaşdıran Raskolnikovlar, “gözlənilməz qonaqlar” və ya ümumiyyətlə xırda detallar ucbatından özlərini ələ verirlər. Necə ki, alçaq boylu Napaleon böyük dünyanı fəth etmək astanasında, Vaterloo-da böyük zabitinin alçaq qətiyyətsizliyi, Napaleonun gözlədiyi halda, düşmənə arxadan hücuma keçməməsi, -ümumiyyətlə dağa bənzər hadisələrdə daş dənəsi ölçülü bir gediş bütün planları təməlindən aşırırdı, eləcə də İmran “niyə çıtma vurmursan” sözü ilə beynini “restart” / “reboot” etmək məcburiyyətində qaldı. Söz nəhəng bir qüvvədir. Hardansa

eşitmişdi ki, keçmişdə yaşamış bir alim 3 sözdən ibarət cümlə ilə istənilən adamı paralizə edəbilir, istənilən adamı özünə tərəf çəkib, istənilən adamdan öz məqsədləri üçün suistifadə edə bilirdi. İndi də bu iki kəlmə, "çıtma vur" onu bir neçə saniyə reaksiyasız, mum heykəl şəklinə saldı.Görəsən bu nə mələm cadu-ipləmə söz birləşməsi idi.  Gürcüstanlı oğlan qarşısında duran naməlumun qımıldamadığın görüb, sağ əlindəkini  yerə qoydu (həmin boğuq vəhşanə səs sən demə toyuq səsi imiş. Gürcüstanlı hər iki əlində evə, üstəlik bina evinə diri toyuq aparırmış....GƏl bu rayondan təzə gələnlərə mat qalma) Boşalmış əli ilə sehrbazyana jestlə çıtma çaldı və üçüncü mərtəbənin sanki günəş dənizinin  nuru doldurdu – lakin mərtəbəni, üstəlik alt və üst mərtəbələri işıqlandırmış həmin işıq mənbəyi günəşin işığı deyil mərtəbədəki mənzillərin arasında olan girdə şüşə kalpakın içinə keçirilmiş 200-lük neon lampası idi. Gözləri bir neçə dəqiqə sərasər zülmətə alışdığından, mərtəbənin ani yanan gur işığı o dəqiqə İmranın nazik gözlərini qamaşdırdı.Avtomatik olaraq qalxan şəklində dirsəyi ilə işığın qabağını  tutmağa çalışdı. Yenə başa düşmədi ki, bu müəmmalı gürcüstanlı nə iş tutdu ki, bir çıtma ilə blokun işığı yandı. Axı bunun məntiqi bir izahı olmalı idi. Məsələni Gürcüstanlı oğlan özü aydın etdi:

- Qağa sən bilmirəm dağdan düşmüsən ya nədi (adi halda İmran bu sözlərdən sonra qarnı tutub gülməkdən ölüb gedərdi- dağdan düşənin biri ona dağdan düşən deyirdi, lap güzgüyə baxan meymun məsələsi idi, ,xxx görməyən aftafa, aftafa görməyən xxx məsələsi idi)

- Dağdan zaddan düşməmişəm...QA-ĞA—deyə kinayə ilə özünəməxsus şəkildə sancdı.
- Başa düşmədin eh, brat...demək istədiyim odur ki, işığın yanmağına çox qəribə hal kimi baxeyrsan. Burda nə qəribəlik var axı?! Hərəkətə çustvitelnıy lampışka görməmisən? İndi təzə motdu. Mərtəbələrə axı bizim əclaf Barmek pulsuz işığ vermir, deyir canınız çıxsın blokun , mərtəbənin işığını atışıb öz hesabınıza, öz liniyanızdan  çəkin-yandırın. İşıq olmasa pəncereyləri olmayan bu mərtəbələri ümumiyyətlə çıxmağ olmaz, əkə. (Əkə...yəni İmran o qədər enlikürək idi ki, yaltaqlıq əlaməti olaraq onu belə çağırdılar) Onçun da, mərtəbələrə işığa ekonomya eləməyçin  bu çustvitelnıy lampoçkadan qoyeyrlər.

Dəlidən doğru xəbər buna deyirlər. Sən demə rayondan gəlməklə, dağdan düşməklə deyil, sadəcə gərək hər zaman hadisələrin önündə olasan, bir addım qabaqda (yəqin çox bilmişliyindən pilləkanları cüt-cüt qalxırdı).

- Məsləhətə görə çox sağol, ancaq mən belə işığı görəndə sən hələ Gürcüstanda çobanlıq edirdin –deyə özünü sındırmamaq üçün qarşı tərəfi sındırmağa çalışdı. Qarşı tərəf isə yenə də göznəlilməz halda bir söz demədən, nəzərlərini qorxu içində İmrandan uzaqlaşdırıb yenidən (artıq) qakkıldayan toyuqları əlinə aldı və beş pilləkan da qalxıb, sağdakı yola çıxmış qatarın qapısından girirmiş kimi mənzilin seyf qapısından özünü içəri salıb, arxadan qapını çəftələdi.

Məgər bu zırpı-heybətli dağlar oğlu onu yaxşıca şilləməli deyildi-deyə fikirləşib artıq öyrəndiyi şəkildə çıtma vuraraq hərəkətsizlikdən sönmüş işığı yenidən yandırdı və sinəsinə xeyli hava alıb, nəfəsini tam ötürmədən, düşdü mərtəbələrin canına.

Yeddinci mərtəbəylə səkkizinci mərtəbəni beş-altı pilləkan ayırırdı.

-Hə, sağdakı qapı qırmızı qapı Ayanın xalasıgilin qapısıdır.- qulağınamı pıçıldadılar, içindənmi gəldi bu əminlik, sonra da heç cür müəyyən edə bilmədi. Bildiyi qədəri Ayan ona xalası gilin mənzilinin sağ və ya sol qapı olduğunu xatırlatmamışdı. Hardan idi bu qədər əminlik hissi? Görünür intuitiv olaraq fikrində tutmuşdu bu qapını.

Səkkizinci mərtəbədə burnuna çox tutqun turşu iyi gəldi. Qapağı açılmış köhnə şor qazanından belə kəskin üfunət gəlməzdi. Qaranlıq isə həmin öldürücü qoxunun mənbəyini müəyyən etməyi çətinləşdirirdi. Niyə qaranlıq? Ona görə ki, ÇITMA VURMAQDAN barmaqlarının ucu göyərsə də, mərtəbənin işıqları yanmaq bilmədi. Məlum olanı o idi ki, səkkizinci mərtəbə sakinləri bir o qədər müasir texnologiya və elektronika ilə ayaqlaşmayan və ya əksinə ayaqlaşıb, sadəcə ovucları bağlı, hədsiz dərəcədə xəsis biriləri idi.

Yol kəsişməsi qarşısında duran dərviş tək, iki qapının arasında dayandı, xəyallar onu gözlənilmədən, uşaqlığın zaman dondurucu xatirələrinin ağuşuna apardı. Hardadır o gizlən-qaç, o yeddi şüşə, o səndə-məndə oynadıqları günlər. Hanı o xəlvətcə qonşuların alça, xar tut ağaclarının ən hündür budaqlarına dırmaşıb, danışa-danışa, tələsmədən meyvə yedikləri günlər. Hanı o binanın daha az deyinən mənzil sahibələri olduğu

mərtəbələrdə, indiki kimi iki qapı arasında yerə çömbəlib Mortal Kombat fişkaları döyüşdürdükləri günlər, saatlar, dəqiqələr, saniyələr,... Yadında idi ki, hər gün  atasından (əvvəllər indiki kimi atası xəsis və soyuq deyildi) pul çırpışdırıb iyirmiyə yaxın yeni, üzərində Mortal Kombat video oyunu qəhraman və anti-qəhraman döyüşçülərinin həkk olunduğu  yumru kartondan olan fişka alıb, döyüşdürəndə əfəllənib hamısını uduzardı. (Fişkanı adətən mano-a-mano yəni iki nəfər döyüşdürürdü, qaydalar isə belə idi ki, tərəflərdən hər biri bir fişka təqdim edir, və hər biri bu fişkaları birləşdirib, kimi var gücü ilə, kimi yavaşdan, kimi də özünməxsus bicliklə, baş barmaqla işarə barmağı arasında sıxıb yerə çırpırdı. Kimdə bu fişkaların ikisi də çırpılmaqdan o biri üzünə çevrilərdisə, həmin tərəf rəqibin fişkasına sahib olardı). Məğlub olmaq, uduzmaq insanı bərkidir, insanı təmkinli edir deyirlər, ancaq,ta bu qədər də uduzmaq olardı.

Zaman İmran üçün dayanmışdı. Gülümsədi və kəpənək dodaqları çarpayıya salınan qırmızı prostina tək yanlara süzüldü. İlk dəfə içində formalaşmağa başladığı hiyləgərliyi elə o zamanlar tətbiq etmişdi. Uduzmaqdan bezar olmuşdu. Axşam məktəbin yanında olan budkadan yeni, üzərindəki plyonka qatı pırıl-pırıl parıldayan, rəngarəng fişkalar topası alıb, evə tələsdi. Hamı küçədə yeddi şüşə oynayırdı, İmranı da çox gözləməyib, onsuz oynadılar bu dəfə. O isə otağına xəlvətcə keçib, ən çox bəyəndiyi qəhramanı – SUB ZERO həkk olunmuş fişkanı əməliyyata hazırladı. Dərs hazırlıqları üçün atasının ona aldığı masa üstü elektrik lampanı yandırıb, oturacağını qabağa çəkdi. Qalan fişkaları çarpayısının üstünə vızıllatdı. Ehtiyatlı şəkildə nazik rapira ülgücü tutub, fişkanı yavaş yavaş ortadan iki qata

ayırdı. Artıq fişkanın bir üzü bir əlində, digər üzü o biri əlində idi. Özü də şahidi oldu ki, fişkanın içi sadəcə ən adi kartondan ibarət idi. İndi isə əməliyyatın ikinci ən əsas mərhələsinə keçid almaq vaxtı idi. Hələlik fişkanın hər iki qatını geniş masasında bir qırağa qoydu. 100 vərəqli dama-dama dəftərinin arxa səhifəsindən yarım çimdik kağız qopaşdırıb, tut yeməkdən qaralmış balaca barmaqları ilə kağız parçasını yumurladıb,sıxa-sıxa, presləyib bir xırda düyün şəklinə gətirdi. Əlinə super yapışqan alıb fişkanın hər iki qatına bolluca yaxdı. Çox ləngiməк olmazdı. Super yapışqan, super möhkəm yapışdırdığı kimi, super də tez quruyurdu. Həmin düyün kağız dənəsini alt qatın üstünə qoyub, qatları bir-birinə elə yapışdırdı ki, düyün kağız qatlarına arasında qaldı. Öncə əli ilə sürüşdürməklə qatları içində hava qalmasın deyə bir-birinə yaxşıca hopdurdu. Sonra həmin fişkanı kitab rəfindən düşürdüyü 900-səhifəlik qalın kitabın – ümumi illustrasiyalı ensiklopediyanın arasına qoyub yarım saata yaxın arasında saxladı. Axşam yeməyini yarımçıq yeyib, ekperimentin nəticəsini görmək üçün dərhal “labaratoriyasına” şığıdı. SUB ZERO əla vəziyyətdə idi. Bircə ortasında xəfifcə qabarma hiss olunurdu, (qatların arasında qalmış düyün kağız ucbatından) ki, bu da “İmranın böyük hiyləsindən” xəbəri olmayan kimsənin heç ağlına belə gəlməzdi ki, cığallığın belə yolu da ola bilər, nəzərə çarpacaq dərəcədə aşkar deyildi, fişkaya edilmiş yarım saat öncəki dəyişiklik. Hiyləyə gələndə isə, əməliyyatın əsas predmeti ondan ibarət idi ki, belə halda fişka artıq nahamar olduğundan, döşəməyə çırpılan zaman güc ən çox ortaya düşdüyü halda, mərkəzdə süni qabarma olduğundan, fişka demək olar ki hər atışda

çevrilməkdən yanaşı, üstəlik rəqibin fişkasının da çevrilməsinə şərait yaradırdı.

Yenidən gülümsədi və başını bir az buladı.

İmran heç vaxt səhərin tez açılmağını, sabahın belə çabuk gəlməsini o günki kimi gözləməmişdi. Gibrit SUB ZERO o qədər uğurlu alınmışdı ki, 3 gün ərzində 280-a yaxın fişka qazanmışdı, qonşu uşaqlar arasında SUB ZERO fişkası əfsanəsi yaranmışdı. Hər kəs bu məğlubedilməz SUB ZERO-nun dalına keçmək istəyirdi. SUB ZERO-nu 500 fişkaya dəyişmək təklifi belə almışdı.

Sol qapı elə ani açıldı ki, hələ bir neçə saniyə özünə gələ bilmədi. Ancaq evin işığı gözləri qaranlığa alışmış gözlərinə toxunanda, işığa acıyıbmış kimi gözləri gizildədi. Görəsən, mən bu səkkizinci mərtəbədə nə qədər vaxt dayanmışdım?-deyə lap-çaşbaş qalmışdı.

Qapının arxasında 6 yaşlı bir şirin oğlan durmuşdu. Çox güman qapını açan da elə o idi. Balaca uşağın əynində ağ-mavi zolaqlı, üzərində hörümçək adam filmindən baş və mənfi qəhrəmanların cizgili rəsmləri olan pejama var idi. Sümbülü sarı saçları elə düzümdə idi ki, uşağın başına girdə forma verib, qulaqlarını tam gizlədirdi.

- Qusik, ti tam skem razqovarivayiş...-evin lap dibindən rus dilli ananın səsi eşidildi.

Şirin uşaq İmrana gülümsəyib

- Ne skem mama...eto tot dyada- hi-hi-hi- deyə kişmişi gülüşlə qapını örtüb, İmranı yenidən qaranlıq bir məkana yenidən çaşqınlığa qurşadı.

Uşaq elə bil onu, çaşqınlığa saldığı qədər də ümumi çaşqınlıqdan qurtardı. Yadına düşdü ki, bura gəlməkdə əsas məqsədi, Ayanın iztirablarına son qoymaq, Ayanın ən sevimli xalası oğlunun potensial qatili barədə hərhansı bir dəlil-sübut aşkar etmək idi. O əclafın ağciyərlərinin azadlıq havası udmasına çox qalmayıb. Bununla belə ehtiyatlı olmaq lazım idi. Həyəcan dolu doqquzuncu mərtbəni İmrandan sadəcə onaltı pilləkan ayırırdı. Heyf ki, uzaqgörənlik istedadı yox idi. Bütün olanlarını verərdi bircə həmin anda bu istedada malik olmağdan ötəri. Axı necə bilsin ki, təlaş içində "yetim"-in mənzilinə daxil olandan sonra başına nələr gələcək, ürəyi qorxudan, mənzilin içində istənilən ani vibrasiyadan və ya cüzi hərəkətdən partlayacaqdımı, partlamayacaqdımı?!

Doqquzuncu mərtəbədə 2 yox yüzlərlə mənzil qapısı olsaydı belə, bircə dəfə baxmaqla, Yetimin qaldığı mistik abu-havayla dolu mənzil girişini müəyyən edərdi. Çox qəribə hiss idi. Ağ boyalı örtüyünün cızıqları qaranlıqda belə gözə sataşan bu qapı qeyri-adi şəkildə İmranı özünə çəkirdi. Nəbzinin bərk vurduğunu hiss etdi. Udqunub, ürəyini dişləri arasına alıb, həmin "canlı" qapının önündə durdu. Çıtma!Daha bir çıtma! Yox...görünür, bu mərtəbə də hərəkətə həssas işıqlandırma sistemi ilə təchiz olunmamışdı. Qaranlıq isə onsuz da tükləri biz-biz edən atmosferə bir az da qorxulu abu-hava qatırdı. İmrana elə gəldi ki, indi özü hərəkətə həssas bir qurğuya çevrilib. Bircə taqqıltı, bircə kənar toxunuş onu yerindəcə iflic edə bilərdi. Əvvəllər həmin "yetimi" görməsə də, onun tükürpədici təsviri və ödü işə salan görünüşü beynində durmaq bilmədən,

mərtəbənin zülmətində belə, rəngarəng və ağ-qara tonlarla metamorfazlar şəklində  təcəlli edirdi.

Yetimin mənzilindən çıxan ani qadın harayı İmranı dərhal qapıya atılmağa məcbur etdi. Qapının arxasına qulağını dirəyib, potensial təhlükə ocağına daxil olmazdan əvvəl içəridən çıxan səslər əsasında daxili şərtləri müəyyən etməyə çalışdı.

- İndi sənin kürəyinə əl toxunacaq

Qulaqları ilə bu qısa cümləni çırpışdırsa da əvvəl onun batinə varmadı. Sonra isə sözün əsl mənasında İmranı əsməcə tutdu. Yəni içəridə olan kimsə onun qapının arxasında olduğunu bilib, onu təhlükədən xəbərdar edirdi. Axı İmran 100 faiz əmin idi ki, ona müraciət edirdilər.

Dayan,dayan. Ürəyin nəbzi bir qədər də sürətləndi. “Bəlkə həmin cümlə ancaq mənim beynimdə səsləndi”-deyə düşünüb qorxudan dilini dişlədi.

Xarici xəbərdarlıq və ya daxili səs!- deyə iki variant arasında seçim etməyə çalışırdı ki, anidən belinə soyuq və iri insan əlinin toxunması ilə huşunun tədricən özündən getdiyini duydu.

## III  FƏSİL

## F A T A L İ T İ

**3 ay sonra**

Elan verməyə gələn başqa bir müştərinin yanından keçdiyini görüb ağ səhifəyə yazdığı yarımçıq sətirləri görməsin deyə ovucu ilə örtdü. Latın əlifbasına heç cür alışa bilmədiyindən, indi gülünc vəziyyətə düşmüş və təkcə bir cümləni on dəfə yazıb-pozmuş, iki təmiz ağ kağız korlamışdı. Elan verməyə gəlmiş

cavan xanım,-müştəri ağsaqqal Rüstəm kişinin bu məsum hərəkətinə gülümsəyib, ofis menecerin masasına yaxınlaşdı.

- Görəsən, necə yazım...böyük hərflə yoxsa...gərək ki, “Cı” hərfi rusun “Se” hərfi kimi eynilə yazılır- deyib çətin vəziyyətdə belə ofis menecerə kömək üçün müraciət etmədi.

Rəsmiyyətə qalanda payızın ilk günləri yaşansa da, havalar yaydakından da cırhacır isti və rütubətli keçirdi. Yazıq olsun kibertoniklərin halına. Ofis menecer ədabaz bir səbzxətt gədə olub, masaüstü ventilyatorun yaratdığı süni küləklə az qala havanı udurdu.Bununla belə, hər on dəqiqədən bir köks ötürüb, yenidən bloknotunda lazımı qeydləri aparıb, ƏLDƏN-ƏLƏ qəzetinin müvafiq səhifələrindəki elan və yazılarla tutuşdurmalar yerinə yetirirdi.

Yaşxı bilirdi...çox yaşxı bilirdi ki, qarşısında oturmuş qoğal bədən formalı balacaboy ağsaqqal çətinlik çəkir, əl yetirməyinə ehtiyacı duyur. Bununla belə eqoist təbiətindən, təşəbbüs göstərib Albalı qəsəbəsindəki bağını satmağa çalışan Rüstəm kişiyə yaxınlaşmırdı.

Rüstəm kişi “gecəyığışanlar” dəstəsi ilə rastlaşdıqdan sonra, xoşbəxt və firəvan bağ həyatı idealları alt-üst olmuşdu. Ailəsi üçün qorxmağa başlamışdı. Gör bu qəsəbənin uşaqları-yeniyetmələri belə azğın manyak idilərsə, gör yaşlılar necə yırtıcı olardı?! Rüstəm kişi həmin 12 sotluq torpaq sahəsi olan bağı satmaq üçün qəzetə elan verməyə gəlmişdi.

-Axmaq qoca, bəs bilmirsənki elan verməyə gələndə, gərək özünlə hazır evdə yazdığın yazını gətirməlisən...Elə olsaydı bu qədər biabır olmazdın-deyə özünü tənbeh etdi.

Ofis menecer, daha doğrusu elanları 2-3 manat arası qiymətə qəbul edən ədəbaz qaqaş, ayıbçı yerlər geydiyi dar brici altında pırtlamış,  qolları və beli açıqda qalmış, sinəsinin xətti yaşıl maykasının altından vaqe olmuş bu 30-35 yaşları arasında, saçları kare xanımı görən kimi, bayaqdan bəri oturduğu melanxolik pozadan tam azad olaraq, xanıma bic-bic gülümsədi. Qadın da az qaldı ki ərisin getsin. Yaxşı ki, menecer ilk öncə qadının əndamına göz süzdürdü, belə ki, ilk növbədə simasına baxsaydı, artıq bundan sonra qadının bütün bədəni çılpaq olsaydı belə ona olan şəhvəti ocağa tökülmüş su kimi tam söndürərdi. “Yəqin elə kare saçı da ona görə seçib ki, üzünün eybəcərlikləri görükməsin.”düşündü. Qadının burnu böyüklükdən əlavə Sezarın burnu kimi əyri idi. Gözləri də sifətinə və saç düzümünə heç uyğun olmayıb hədəqəsində dombalmışdı. Dərisinin qap-qara olması onun çox güman yaxın aylarda Kürdəmirdən Bakıya gələnlər dəstəsinə qoşulduğundan dəm vururdu.

-Salam, qardaş

-Salam  xanım!

- Elan vermək,  istəyirdim.

-Buyurunuz xanım, əyləşin

Qadın yazı masasının önündə müştərilər üçün nəzərdə tutulmuş kresloda əyləşən kimi, saçlarını və sinəsi açıq köynəyini oynatmağa başladı. Menecerin artıq kanarları belə görükən döşlərinə baxdığını görüb sevindi. Menecer udqunub tez masaüstü ventilyatorun küləy istiqamətini qadına tərəf çevirdi. Qadına qanad versəydin sevindiyindən uçardı. Yaxşı ki, rayondan baş götürüb qaçmışdı.Orada qohum-əqrabasının

yanında belə ehtiraslı geyimlər geyə bilmirdi. Kifir olması ucabtından ona heç bir kişi bu yaşına kimi yaxınlaşmamışdı. İndi isə Bakıya gəlib azad quş olmuşdu.  Ən şəhvətli geyimlər və aksesuarlardan istifadə edib, özünə ağzısulanmış kişilərin diqqətini cəlb edirdi. Cahil bir yeniyetmə kimi bu çirkin əməllərinin məntiqi nəticəsini görmürdü. Hələ bilmirdi ki, bir neçə dəfə Vosmoy bazarında işləyən satıcılarla yatandan sonra, şəhvətə görə həyatını zülmətə qərq edəcək, hədələr və işsizlik ucbatından ən ucuz fahişələrdən birinə çevriləcəkdi. Və ən əsası o idi ki, artıq iyirminci belə müştəridən sonra onda şəhvət hissi ümumiyyətlə yoxa çıxacaq və özünə, o tələsik hərəkətlərinə nifrət etmiş olacaqdı.

-Bilirsiz mən elan  vermək istəyirəm.

- Xanım, bura elə elan verməyə gəlirlər də, sizin kimi gözəl xanımlara canımızda qurban. – qadın yenidən ehtiraslı şəkildə gülümsədi

- Çox sağ ol, qardaş. Deməli mən iki elan verməy istəyirəm. Ancaq gərək mənə kömək edəsiz. İş orasındadır ki, mən besavadam, yaza bilmirəm. Odur ki, mən deyim siz yazasınız.- yanaqları yarım metrə uzadaraq, ilan baxışlar altında gülümsəyib- puldan əlavə xəcalətinizdən bir təhər çıxaram - Elan qəbul edən oğlan göyün yeddinci qatında idi. Şikar özü ovucuna düşmüşdü.

- Deməli birinci elanımı deyim yazın.

“Təcili. Evlərə və ofislərə masajist gedirəm. Hər növ masajı bacarıram.Gecə qala bilərəm.  Qiymət razılaşma yolu ilə.Telefon: (070) XXX-XX-XX”

- Başqa elanınız da var?

- Hə yaz ki,

“Bakıda yaşayan, 25-55 yaşlarında olan alicənab bir kişi ilə tanış olmaq istəyirəm. Ciddi olmayanlar narahat etməsin...həmin nömrəni yaz”

Elanın diktəsini bitirən kimi guya utanırmış kimi gözlərini aşağı salıb:

- Qardaş yəqin məni burdan gedəndən sonra ələ salmazsınız?!
- Xanım Siz nə danışırsınız, - qabağa qıncanıb pıçıltı ilə-bəlkə ikinci elanla bağlı birinci elə özüm zəng vurdum, belə gözəl, sulu xanımı əldən qaçırmaq axmaqlıq olar-xanımın ürəyi qəşş elədi,bədənindən soyuq ehtiras dolu üşütmə keçdiyini duydu. Menecer yenidən belini kresloya söykəyib artıq ucadan :
- Bir dəki xanım, bura o qədər qəribə elanlar gəlir ki. Sizin elanda nə qəribəlik var axı. Məsələn, artıq iki buraxılış ard-arda bir şizik belə bir elan verir.Bax bu saat onu flamasterlə qeyd etmişdim. Budur tapdım.

  “Bü günün təqvimi ilə tanışsız. Axı bu gün telefonunuzun displeyində, kalendarınızda, televizorunuzda verilən həmin o gün deyil. Axı siz böyük suiqəsdin qurbanları kimi aldadılırsınız. Axı zamanı özünüz də bilmədən 7 gün önə çəkiblər. Yadda saxlayın cari təqvim ayın 25-dirsə deməli əslində ayın 18-dir. Aldanmayın. Bu yaxınlarda sizə daha dolğun məlumatlar verəcəm”

Rüstəm kişi dərhal başını yazıdan ayırıb müəmmalı elanın şərhinə qulaq verdi.

- Əvvəl redaksiyaya elanı verəndə, ordakılar bilmirdilər ki, bu elanı hansı bölməyə qoysunlar. Sonra dedim kişi nə çox nə az 5 manat pul verib (əslində özüm elə dedim mənə axı 10 manat vermişdi...ağzım nə idi o qədər pul alannan sonra elan çıxmasın). Uzun sözün qısası ayrıca bir yarım-bölmə açıb adını "şizo-elanlar" qoydular. Əslinə qalanda bu elan redaktorda əla ideya yaratdı. Xalqın marağını qəzetə artırmaq üçün hər buraxılışda ona yaxın belə şizoelanlar qoymaq olardı. Redaktor elə bilir ki, elanı verən oğlan prikolçun belə elan verir. Amma mən bilirəm axı o ciddi sifətli oğlan elanı hır-hır olsun deyə təqdim edən deyil... Mənə elə gəlir o biraz dəli-fasondur.

Rüstəm kişi elanı verməmiş ofisi tərk etdi.

*** *** ***

İmran skamyada oturub cins pencəyinin yaxasını möhkəmdən sıxıb, ülgüc tək kəsən payız küləyindən qorunmaq məqsədilə büzüşmüşdü.Nəzərləri səkinin qazonu üstündə 4 aylıq pişiyə işdə yemədiyi sosiskanı verən Ayanda idi. Pişiyləri uşaqlıqdan sevməzdi, ancaq Ayana görə istər istəməz bu ev heyvanına qarşı bir qədər yumşalmışdı.

İki aya yaxın idi ki, İmran yeni iş tapmışdı. Dizayner qismində SiVisini BTV telekanalına göndərmişdi. Üstündən bir neçə gün keçəndən sonra siviylə tanış olduğunu deyən Kadrlar şöbəsinin müdiri İmranı testə çağırdı. İmran təyin olunan gün telekanalın baş ofisinə gəldiyi günü bəlkə ömrü boyu yaddından çıxarmayacaqdı. Belə ki, imtahana başlamaq üçün ona kadrlar şöbəsində qələm-kağız təqdim olunanda artıq nəisə anlaşılmamazlıq yaşandığını hiss etdi. Axı dizaynda nə ruçka-

kağız. Sonra məlum oldu ki, ağılasığmaz bir təsadüf baş verib. BTV telekanalına İmran tərcüməçi qismində çağırılıb. Yəqin kadrlar mütəxəsisi kiminsə sivisiylə səhv salıbmış. Bununla belə bəxtini sınamaq məqsədilə, kadrlar üzrə mütəxəsisə səhvə yol verildiyini bildirmədən, (ingilis dilini və rus dilini mükəmməl də olmasa, "yaxşı" bilirdi) vərəqələrdə ona təqdim edilən mətnlərin tərcüməsinə girişdi.

Sabahı gün isə daha bir sürpriz yaşandı. Gözləmədiyi halda ona BTV-dən zəng gəldi və bildirildi ki, o yaxşı nəticə göstərərək gecə növbəsinə işə çağırılır. Şərt isə o oldu ki, tam işə götürülməzdən əvvəl İmran bir həftə gecə növbəsində işləməli idi. Əlbəttə gecə növbəsinin tərcüməçisinə ehtiyacın böyük olduğunu nəzərə alaraq, həmin bir həftə istənilən halda formal xarakter daşımalı idi.

Birinci ay çətin olsa sonradan işin atmosferinə uyuşa bildi. Lokal baxımdan "alababat" sayılan maaşı ilə gündəmə çıxan gələcək evlilik məsələsi üçün tədarükə başladı.

Ayan pişikləri yedizdirib yerinə skamyaya qayıtdı. Əllərini tünd göy çantasından çıxardığı nəm salfetlə silib, İmranın yorğunluqdan solmuş üzünə baxdı:

- İstədiyini nail oldun, yaramaz.! – gülümsəsə məğrur xasiyyətini təslim etmiş kimi görsənməmək üçün tez özünü yığışdırdı – evdə sənnən söz açdım. Dedim ki, köhnə iş yoldaşım artıq neçə aydır ki, mənə aman vermir. Elə deyir səni almalıyam.

İmranın dərhal gözünün qabağına bir neçə ay bundan qabaq inkişaf etmiş ikili hadisələr düşdü. "Bizimkiləri göndərim", "Qurban olum, evdəkilərə de ki, elçi göndərəcəm", "Ayan, bax

sənə and verirəm...”, “Soruş, soruş nə vaxt elçi gələk” – o qədər qırsaqqız xasiyyət almışdı ki, bunca vaxt sonra dediklərini təhlil edərək, özündən utandı.

Bəzən yorğunluq, bəzən əksinə ruh yüksəkliyi yaddaş “bağının” ən uzaq “muncuqlarını”, xaotik şəkildə ön plana gətirir. İmran isə tam başqa kateqoriyaya aid idi. Özündən asılı olmadan hər dəfə Ayan haqqında dərindən fikirləşdikdə, həmin o tükürpədici gün – Yetimin qapısını pusan zaman başına gələn dəhşətli hadisəni heç kimə danışmadığı o sirli gün. Gicgahından uzanan bakilərindən bərk sıxıb, qara xəyalın ağuşundan yaxa qurtarmağa çalışdı. “UNUT!” “YADINA DÜŞMƏSİN BELƏ”. Köklərindən zəifləmiş tellərini dartmaqla yaddaş DNT-lərini yox etmək olsaydı, başında bir tük belə qoymazdı. İradi şəkildə həmin günün təfərrüatlarını ağlından qovub, xoşbəxt günün “süfrəsinə” meyl saldı.

Nəhayət ki, baş tutdu. Qız yəqin doğrudan da onu sevirmiş. İmranın sevincinin həddi hüdudu yox idi.

- Oldu...Əla...sənə qurban olum. Əntiqə! Şənbə günü İnşallah bizimkilər həriyə gəlir.

Ayan bir söz demədən skamyadan qalxdı. Parkın qapılarına doğru hərəkət etdi. İmran başa düşdü ki, belə bir çətin vəziyyətdə, həyatında qəribə faza keçidləri yaşayan bir qızcığaz üçün belə söhbətlər çox ağır idi, onu tək buraxmağa dəyərdi. Ona görə də arxasınca bu dəfə getməyib, elə skamyada əyləşmiş vəziyyətdə qaldı.

Təqribən 10 dəqiqədən sonra mobil telefonuna Ayandan mesaj gəldi.

“Amma bil ki, atam məndən soruşsa ki sən nə deyirsən, mən səni sevmədiyimi deyəcəm, sadəcə səninlə dost olduğumu deyəcəm, son sözü onlara verəcəm”

*** *** ***

- Rustam bek, sən bu yaşında da gopa basarmışsan. Sən Albalı qəsəbəsinin adını çəkəndə artıq məni çaşbaş elədin. Albalı nədir eh! Axı hamımız oranı Vişnyovka kimi tanıyırıq. Hə deməli Vişnyovka qəsəbəsində səni bir dəstə “patsan” hədələyib. Üzərinə bıçağ çəkmişdilər? Nə fikrə getmisən dillən də.

Rüstəm kişinin qulaqları xolerik temperamentli dostu Fəzaildə olsa da, fikirləri hələ də son günlər , son aylar eşitdiklərinin təhlilinə qurşanmışdı. Ağlına dəhşət dolu, tükləri biz-biz qoyan fikirlər gəlirdi. “Müştəri” insanları xəbərdar edir. Bəlkə heç o xəstə deyil? Bəlkə biz siravi vətəndaşlar həqiqətən də “müştəri” deyən kimi aldadılırıq? Məqsəd nədir? Yeni belə dəhşətli suiqəsd ola bilərdi? Bu kimlərin suiqəsdidir, kimlərin oyunudur, bu qədər insanı necə aldada bilirlər, tarix necə olur ki, həqiqi tarix deyil? ....kim bilir oğlan bəlkə də ay təqvimini nəzərdə tutur...Yox o da deyil. Lap tutalım, doğrudan da belə böyük bir suiqəsd təşkil etmiş olalar. “Müştərinin” necə xəbəri ola bilər. İnsanları qəzet vasitəsilə xəbərdar edir, polis şöbəsinə düşür, mənim oğlumu xilas edir, bir həftə əvvəlin qəzetlərini oxuyur...qəzet, mənim bayaq niyə ağlıma gəlmədi axı. Əgər o keçmiş tarixli qəzetləri bugünkü kimi oxuyursa, deməli heç bir suiqəsd yoxdur sadəcə o xəstədir.Cari vaxt bir həftə qabaqkı

gün olsa, redaktorlar, jurnalistlər, xəbərlər, ümumiyyətlə hadisələrin şahidləri, bir həftə sonra baş verəcək şeyləri necə öncədən görüb yaza və ya  videogörüntüyə ala bilər. Tam absurd bir şey.  Neyləmək olar, mən həqiqəti gərək olduğu kimi qəbul edim. Mənim sevimli müştərim dəlidir.  Bazarda xoşuna gələn bir malı alıb, evdə bəyənməyən bir alıcının vəziyyətinə bənzəyir. Ancaq gərək nankorluq etməyim. Nə olsun agitasiya ilə məşğuldur. Qoy özü bilsin. Mənim oğlumu xilas edib.  Nə olsun onu polis şöbəsindən anonim şəkildə çıxartdırdım. Onun xəcalətdindən çətin ki necəsə çıxım. Əsası odur bağıma pusquya çıxan o "saxta polisin" kimliyini müəyyən edim. "Gecə yığışanlar" – həmin manyak yeniyetmələrdən ibarət dəstə bu, yaramazdan niyə bu qədər qorxur axı?

Televizorun ani olaraq səsinin açılması, Rüstəm kişini dərhal fikirlər dalğasından  uzaqlaşdırdı. Şəkilinin televizorunun belə bir xüsusiyyəti var idi ki, hər gün saat 12 tamamda öz-özünə yanırdı. Kabel televiziyasını qoşulmuş Şivaki televizor birbaşa MTV kanalında olduğundan, ani peyda olmuş metal rok qrupunun ifası, diksindirici effekti daha da artırdı.

Fəzail dərhal-

- Nə yaxşı bu televizor var deyirəm. Yoxsa Rüstəm kişini vabşe oyatmaq olmayacaqdı.

Oyatmaq! Bir neçə saniyədən sonra özünə gəlib, olduğu mühitə qısa nəzər yetirdikdə, başını masaya söykədiyini gördü. Yəni o doğrudan da yuxuya getmişdi.  Nə...axı bir neçə saniyə bundan əvvəl, Fəzail onu lağa qoyurdu, vişnyovkadakı bağı barədə. Necə ola bilər. Makler Aslanla qonşuluqdakı masada  siqaret tüstüləyərək, sakit şəkildə söhbət etdiyini gördü.

- Mən nə qədər yatmışam?
- Hardasa 2 saat
- 2 saat? Necə olub yuxuya getmişəm.

Cavabı gözləmədən Şəkilinin üç manatını verib, çayçını tərk etdi. Zaman paradokslarına inanmayan Rüstəm kişi özü zaman tələsinə düşdü. Yol boyu "müştəri" haqqında düşündüyü bir neçə saniyəlik fikirlərin necə 2 saata çevrilib, onu evə gecikdirdiyini müəyyənləşdirməyə çalışdı. Birdən yadına düşdü ki, sən demə, Şəkiliyə dünənnən 5 manat 80 qəpik borclu idi. Son vaxtlar lazım olan şeyləri yaddından çıxarması müntəzəm şəkil almışdı. Bilmirdi huşu zirvədən üzü aşağı gedir, yoxsa hələ öz zirvəsinə qalxmayıb, arabir yolda ikən dincəlir.Bir yaxın qohumundan eşitmişdi ki, çoxlu kakoulu şirniyyatlar – yəni bir sözlə əlinə keçən şor-şokalad boğazdan mədəyə yollamalısan ki, həmin zəngin maddələr beynin usanmış yaddaş hüceyrələrinin başını alladsın.

Gözünü qırpmağı ilə mənzilinin qapısı önündə durduğunu gördü. Aman allahım! –deyə Rüstəm kişi özünü saxlaya bilmədi. Artıq anlaqlı olmağına şübhə etməyə başlayırdı. Axı mən çayçıdan elə indicə çıxmışdım. Bax şokolad məsələsinə yada salan vaxt maşın yolunu keçirdim. Qapını bir müddət döymədi. Yenidən fikrə getdi. Yəni 200 metrlik yolu avtomatik şəkildə, sözün əsl mənasında məkan və zamandan təcrid olmuş vəziyyətdə qət etmək olar?!. Sağ əlində tutduğu mobil telefonu şalvarının cibinə buraxıb, həmin əli ilə fikrini cəmləyirmiş kimi gicgahına dirədi. Elə nə başıma gəlir tənbəlliyimdən gəlir. Hər dəfə özümü əziyyətə salmaqdan vaz keçirəm. Yeddi yaşımdan bəri vurma cədvəlini əzbərliyə bilməmişəm. Bunun axı nəyi yaxşıdır.

Kalkulyatora həmişə ümid olmaq olmaz, xırda şeyləri hesablamalı olanda pis vəziyyətə düşürəm,...müştərinin yanında həmin hesablamanı kalkulyatorla aparmaq olmur ki, desin kütbeyinin biridir. Kim bilir bəlkə riyaziyyatı bilməmək elə əsl kütbeyinlikdir. Ona görə də düşdüyüm vəziyyətdən asılı olaraq hər dəfə pulu ya artıq ya da əksik qaytarıram. Deməli çayçının plastik qapısını örtüb artıq qaranlığa qərq olmuş küçəyə boylandım. Hərəkətin olmadığını görüb, maşın yolunu keçirdim. Necə özümdə olmamışamsa, fənərinin biri işləməyən çəhrayı opel astranın yanımda saatda 40 km sürətlə necə ötüb keçdiyini hiss etməmişəm. Belə vəziyyətdə lap qatarın altında da qalmaq olar. Bəs sonra nə oldu. Nə qədər gücəndisə bir şey ağlına gəlmədi. Yox məsələ həddən artıq ciddidir. Əlini gicgahından götürüb, gözlərini açanda artıq uzanıq vəziyyətdə olduğunu gördü. Rüstəm kişinin bədəninə ömründə belə üşütmə düşməmişdi. İndicə padyezdə qapısının önündə durmuşdu, qapını belə döyməmişdi. Birdən-birə o çarpayıda necə peyda oldu. Üstəlik başının üstünə baxanda saat 3.00 səhər idi. Yoldaşı Türanə də üzünü əks tərəfə çevirmiş şəkildə mışıl-mışıl yatmışdı. Yox. Belə getməz, çox yatmağ lazımdır. Hər gün 5 saat yatması bütün əsəb sistemini alt-üst edib. Yuxuya getmək istədi, ancaq gedə bilmədi. Qorxudan gözünü yummağı belə bacarmırdı. Kim bilir bəlkə bu dəfə də gözünü yumsa bir də görəcək ki, həyatından 2-3 il beləcə işıq sürətilə ötüb getdi.

Arxası Rüstəm kişiyə tərəf uzanmış həyat yoldaşından çıxan ani xırıltılı səs, köşk sahibini bədənini vicvicəyə saldı. Adətən küçə iti udlağında sümük qalan zaman belə vahimə dolu səs çıxarırdı. Rüstəm kişiyə elə gəldi ki, beynindən gələn imperativ

impulslar ürəyini belə donmağa məcbur etdi. Qırmız və ağ hüceyrələrdən ibarət qan kütləsi bədənində soyumuş qurğuşun təbəqəsinə çevrilmişdi. Üzünü belə yoldaşına tərəf çevirə bilmirdi.

- Rüstəm, pişikləri gedib basdırdın?

....sükunət....ürəyi artıq pas atmışdı...dodaqlarının lazımsız bir ət parçasına çevrildiyini duydu. İşığı yandırıb, güzgüdə özünə nəzər salsaydı bir neçə saniyə ərzində saçlarının nəzərə çarpacaq dərəcədə ağardığını görərdi....fikirləşməyə vaxtı çatmadı ki, yanında uzanmış xanımın tədricən hərəkət etdiyini hiss etdi.

Özündə güc tapıb ona üzünü ona tərəf çevirən qadına baxan kimi yanında uzanın həyat yoldaşı qiyafəsində olan "müştəri" olduğunu gördü. Haradansa çıxardığı iti ov bıçağını qırtlağına dirəndi. Bıçağın bir neçə dişi artıq ətinə yol tapsa də çaşqınlıq və bədənini ehtiva etmiş vahimədən sinirlər belə beynə siqnal ötürməyə vaxt edə bilmədi. "Müştəri" qırmızı gözləri ilə, qadın xalatında gözünün içinə baxaraq.

- Səniynən deyiləm, pişikləri harada basdırdın,...gecə güzgünü aya tutub, baxdınm?

Qırtlağına elə bil toyuqu lələyi gəzdirdilər. Yalnız fontan vuran qandan anladı ki, boğazını kəsiblər. Bu gördüyü son şey oldu. Bir neçə saniya tam qaranlıq, total sükunət, kollosal çəkisizlik duydu. Gözlərini yenidən açanda başının üstündə durmuş, dizləri ilə sinəsini sıxan "müştərinin" tədricən sifətinin Türanənin simasina keçdiyini gördü. Bıçaq da çay suyu tək şəffaflaşaraq tam yoxa çıxdı.

- Ay kişi, səninləyəm? Sənə nə olub. Bir bax gör eh! Yazıq qızdırmanın içindədir. Sevil! –bir azda ucadan qışqıraraq Sevil! Tez skorıya zəng vur.

***                    ***                    ***

3 cərgə monitorların bir bir səsini keçirdi. Bir azdan təhlükəsizlik əməkdaşının gözündən uzaq yuxuya getməyə çalışacaqdı. Bir monitorda 75 faizlik səs şkalası ilə Əl-Cəzirə kanalında Devid Frostun yorucu səsi, ikinci monitorda Rossiya 24 kanalında 50 faizlik şkala ilə Dağıstandakı partlayışlar, 3-cü ekranda pullu pereqondan yayımlanan Asoşieyted Presdə Livandakı qulaqları dələn iğtişaşlar – hər zaman 100 faiz yəni tam səsdə qalmalı idi. Bircə aşağı cərgədəki digər peyk xəbər kanallarına, BBC, CNN, Euronews,CCTV -ə də səs versəydi beyni tamamilə xəşil olardı. Bununla belə artıq otaqda eyni vaxtda iki kanalın səsinin qulaqlara sərilməsinə alışmışdı. Bu fonda tərcüməsini də edə bilirdi İmran. Monitorlara video və audio siqnalı ötürən peyk qəbuledicilərindən başqa iri paylayıcı aparat da yer alırdı. Bu keçirici- paylayıcı qurğu sayəsində istifadəçi istənilən monitora istənilən qəbul edicidəki kanalı keçirə bilirdi.

Sonuncu alt monitorun səsini alırdı ki, gözü çoxdan bəri nə olduğunu öyrənməyə çalışdığı ancaq müdirə xanımın “kateqorik şəkildə əl vurmaq olmaz” sözləri ilə izahını əvəzlədiyi bir eqvalayzerli, üzərində əllidən çox müxtəlif funksiyalı dümyəsi və keçiricisi notbuk ölçülü qurğuya sataşdı. Düymələrin üstündəki, kod adları yalnız ali mütəxəsislərə məlum ola biləcək latın hərfləri ilə olan yazıları aydın oxuya bilmək üçün aşağı çömbəldi.Darısqal 8 kvadratlıq iş otağında tutqun neon lampasının işığı gecə növbəsində iztirabla çəkən İmranı bir

qədər də yuxuya təslim edirdi. Hərəkətlərini çətin idarə edirdi yuxu çatışmamazlığından. Özü də bilmədi ki, çevirgəcli boz düyməni niyə və nə vaxt burdu...

Nəticəsini və 10 min ABŞ dollarına yaxın olan şitin teleyayımda nə kimi rol oynadığını növbəti gün başa düşdü.

*** *** ***

Eyni anda:

Təhlükəsizlik əməkdaşları, müasir kapitalizmin dilində desək Seküriti, bolşeviklərin dilində desək 2 şirkət “axranı” BTV nin əsas girişində foeyə perpendikulyar şəkildə hündür söykəncin arxasında əyləşmişdi. Önlərində kompyuter – bununla şirkət ərazisinə daxil olmağa icazələri yoxlayır və yalnız müvafiq bildirişi tapdıqdan sonra içəri keçməyə icazə verirdilər, az qala başları ilə paralel şəkildə yerləşən söykəncin üst lövhəsi – üzərində adətən işçilərin gəlib getmə vaxtlarını saniyəsinə kimi dəqiq qeyd etməli olduqları tabellər yer alırdı. Ən asas isə sollarında küncdə divara bərkidilmiş 2 qara monitor – hər zaman hər ikisi qoşulu olmalı idi- vardı. Onlardan biri hər zaman efirdə nə gedirdisə onu göstərməli idi, ikincisi isə verilişin peykdəki tezlik və polarizasiya faizini əks etdirirdi. Bu şirkətin ştatında olan mühafizəçiləri ağılasığmaz dərəcədə böyük səlahiyyətlərə malik kanal əməkdaşı edirdi. Bir sözlə canlı və ya cansız, kanalın efirində gedənlərə istər gecə istər gündüz birbaşa təhlükəsizlik əməkdaşları nəzarət edirdi.

- Aydın, biraza ged otaqları bir bir yoxla. Bayaq karidorda nəisə “adboy-modboy” səsləri eşitdim. Görünür kimsə ağıllı başlı şişib nədi?! Fikirləri gedib Sahib gilin smeninə.

- Hə oldu, qoy bir düşüm bufetdə yeməyim yiyim sonra düşərəm.
- Birdə, yadımnan çıxmamış deyim. O təzə gələn tərcüməçini də yoxla. Mənə elə gəlir “odboy” deyən onun səsi idi. Yəqin əclaf yatıb otaqda...İçəri girəndə qəfildən gir, çox vaxt belələri qapının dalında yatırlar ki, içəri girən olan rezki oyansınlar. Sonra gəl sübut elə ki, o doğrudan da yatmışdı. Adamın üzünə dururlar.
- Düz deyirsən, o təzə gələni gərək tez-tez yoxlayaq. Bilirsən, “Teve” uşaqları həmişə ondan danışırlar. Çox qəribə biridir. Samir deyir ki, artıq iki aydır ki, canlı yayımdan sonra qapı arxasında gözləyib, çıxan kimi ondan avtoqraf alır.

Mühafizəçilərin gözləri efirə nəzarət monitoruna o qədər həssas olmuşdu ki, ekranın anidən göy fona çevrildiyini hiss etmədilər bilə.

***                    ***                    ***

Rüstəm kişi ən azı 2 həftə çarpayıdan qalxmadı. Mikro-infarkt keçirmiş qəzet satıcısı xəstəliyinin ikinci həftəsində iş yerinə qayıtmaq istəsə də yoldaşı Türanə və dostu makler Aslanın təkidi ilə Rüstəm kişi hələ işə çıxmadı. Heç kim başa düşmək istəmirdi ki, əslinə qalanda Rüstəm kişi ailəsinin mənfəətindən çıxış edərək işə çıxmaq istəyirdi. Ən azından ikinci həftəni işə qayıdaraq, tam şəkildə işləsəydi,  həyatından adlarını eşitmədiyi bir yığın bahalı retsept dərmanlarının ümumi xərclərini ödəmiş olardı. Belə isə ailənin yarım aylıq ümidi gündəlik maaş

gətirməsə də, gündəlik məhsul götürən internat-bağça müəllimməsi Türanə xanıma idi.

Köşkün qapısını açan kimi burnuna nəmişlik qoxusu doldu. Döşəmədə o dəqiqə qara girdə dənəciklər göründü ki, bu da son 2 həftə ərzində nəzarətsiz qalmış qəzet dükanında yeni arzuolunmaz müsafirin yerləşdiyini göstərirdi. İçəri girmək istəyən kimi, sanki vəziyyətdən operativ şəkildə xəbər tutan dolusov  boz siçan, Rüstəm kişinin fikirlərini toplamağa macal verməmiş ayaqları arasından çölə qaçmağa macal tapdı. Rüstəm kişi içərinin yır-yığış işlərinə başladı. İki həftə ərzində toz deyilən şeyin toxunmadığı bir yer qalmamışdı. Köşkün alıcılarla ünsiyyət üçün nəzərdə tutulmuş nəfəsliyini aç, qapağında olan deşiklər sayəsində “Cola” qabına doldurulmuş su ilə dikt döşəməyə su çiləd, süpür sil, vaxtı ötmüş ancaq buna rəğmən futbol maçları  zamanı altlıq kimi kiloyla satılan qəzetləri lazımı bağlamaya topla. Bunlar 2 həftə işsizlikdən sonra ilk peşə gününün əsas prioritetləri idi.     Yerinə təzəcə əyləşib köks ötürmüşdü ki, yorğunluq havası bədəndən xaric olmamış, kiçik pəncərədə nazik burun, al yanaq bir 40-50 yaşlarında incə qadının siması canlandı.

Məlum oldu ki, xanım Müsavat qəzetinin həmin günə olan buraxılışını istəyirmiş.

- Təəssüf xanım! Bu gün gətizdirməmişəm! De, yolun o tərəfinə keçin,  qırmızı reklamlı binanın altında qəzet satırlar. – deyə çoxlarından fərqli olaraq konkurentinə potensial müştəri göndərməyə çalışdı.

- Mənə ağıl vermək lazım deyil, hara gedim. Belə də şey olar!? Adını kiosk qoyublar. Qəzet satmırsıssa onda bura niyə işləyir!

Rüstəm kişiyə əsəbləşmək olmazdı. Həkim dönə-dönə tapşırmışdı ki, azı bir ay ərzində sinirlərini xarici təsirlərdən qorumağa çalışsın. Amma özü tədricən başa düşürdü ki, qismətdə nə varsa o da olmalıdır. Onsuzda evdə çöldəkindən daha çox əsəbləşirdi. Ürəyində “nə isə” deyib qadına heç bir cavab vermədi. Özünü geri verib, lövhədən bir kitab götürüb səhifələməyə başladı. Əslində aqressiv xanıma ən müdrik cavab elə saymamazlıq idi. Qadının gözəl simasından əsər-əlamət qalmamışdır. Hirsindən bir söz deyə bilmədi. Burulub it sifətində yoluna davam etdi.  İfritənin kənarlaşdığını görüb simulasiya üçün götürdüyü təsadüfi kitabı yerinə qoydu. Gözucu pəncərədən küçə baxanda qəribə hisslər keçirdi. Yolun qarşı tərəfində hardasa öz yaşıdı olan bir samballı geyimli kişi yanında isə səbzxətt bir yeniyetmə  gözlərini ona zilləyib baxırdı. Atasının qəbrinə and içə bilərdi ki, bu sarsıdıcı nəzərlər obyektə deyil məhz ona zillənmişdi. Ən tükürpədicisi isə o idi ki, hinkir-minkir kimi dayanmış bu cütlük, qorxulu filmlərdəki tək bir-birinin əlindən tutmuşdu. Rüstəm kişi 2 həftəki halusinasiya yaşantılarından sonra, reallığı və qeyri-reallığı ayıra bilmək iqtidarına olmadığını görüb əvvəlcə buna əhəmiyyət vermək istəmədi.  Yeniyetmə boz plaşlı kişinin qulağına nəisə demək istəyirmiş kimi, kişinin əlini silkələdi. Kişi yeniyetmədən azı 50 santım hündür olduğundan aşağı qıncanmalı oldu. Nə? Bu nə sayaq baxışlardı? – Rüstəm kişi  azı arada azı altmış metrlik məsafə olmasına rəğmən boz plaşlı kişinin üzcizgilərinin

dəyişdiyini açıq-aydın sezmiş oldu. Cütlük bir-birinin əlini buraxmayaraq yaxınlaşmağa başladı. Boz plaşlı kişinin yolu keçmək üçün sağa-sola baxması Rüstəm kişini bir qədər reallığa qaytardı. Yoxsa cütlüyün kabus olduqlarına aldanmışdı.

- Salam aleyküm!
- Salam, buyuruz- deyə sakitləşmiş Rüstəm kişi mümkün qədər alicənab olmağa çalışdı. Halbuki maraqdan partlayırdı.
- Bilirsiz, sözün düzü bura bir alıcı kimi yaxınlaşmamışıq...Lənət olsun şeytana, heç bilmirəm nədən başlayım. Vaxtıvızı almıram ki?
- Buyur, buyur! Bu nə söhbətdi.

Rüstəm kişi saçları qaşlarına tökülmüş müasir dəbli yeniyetmənin nədənsə əziyyət çəkdiyini dərhal hiss etdi.

- TƏşəkkür edirəm. Mənim adım Tofiqdir. Nərimanov rayonunun Mədəniyyat Sarayının müdiriyəm. Bu gəncin isə adı Səlimxandır. Qohumlar yaxınlar ona sadəcə Səlim çağırır. Hardasa 3 ay əvvəl...-sözünü tamamlamamış - ... həqiqi deyirəm, nə isə işiniz varsa biz gözləyə bilərik.
- Yox müəllim, buyur davam elə!
- Hə elə onu deyirdim. Məktəbdə 10-cu sinifdə oxuyur. Hardasa 4 ay əvvəl qəribə şəkildə yoxa çıxmışdı. Ev uşağının birdən birə müəmmalı şəkildə axşam saatlarında belə evə məktəbdən qayıtmaması yegana uşağ anası bacımı ürəyinə bir böyük xal saldı. Aləmi qatdı bir –birinə, məktəbə getdik, müəllimləri şagirdləri sorğu sual etdik, hamısı təsdiq etdi ki, Səlim məktəbdən saat 2-dən çıxan idi. Onun hara getdiyini, tək və ya kiminləsə olduğunu

görən olmayıb. Günün sonuna kimi uşağı tapa bilmdəyimizdən polisə müraciət etməli olduq. Gecə yarı evə qayıtsaq da heç birimizin gözünə yuxu getmədi. Elə hey xəbər gözləyirdik. Xəbərsə yalnız 2 gündən sonra Semaşkodan gəldi. Polis verdiyimiz əlamətlər sayəsində Səlimi tapa bilmişdi. Tez özümüzü xəstəxanaya yetirdik. Yazıq uşağın üzündən sağ-salamat yer qalmamışdı. Uşağı əməlli başlı döymüşdülər. Xəstəxana işçisi uşağın Razin yolundan huşssuz vəziyyətdə götürüldüyünü söylədi. Bacım sevindiyindən göz yaşlarını saxlaya bilmirdi. Uşağı o ki, var bağrına basdı. Ancaq artıq Səlimin ona ilk baxışlarından nəyinsə Rus demiş “ni to” olduğunu hiss etdim. Həkim dedi müvəqqəti yaddaş itkisidir. Özündən başqa heç kəsi tanımır. Yaddaş hüceyrələri arasında elə bil əlaqə zənciri qırıldığından, hələlik ətrafındakıların kimliyi barədə konsentrasiya edə bilmir. Elə o vaxtdan dünyadan məhrum olmuş yetim kimi bizim qohumluğumuza şübhə ilə yanaşır. Bircə adını, təvəllüdünü və təhsil aldığı məktəbin adını bilir. Üstəlik bəzən bir sıra qəribə, bir-birilə əlaqəsi olmayan ifadələr işlədir. ( Rüstəm kişinin öz oxşar tam eyni olmasa da oxşar hal xəstəsi – prosopaqnziyalı olduğundan uşağın halına acıdı)

Danışdıqlarını üçündən başqa qulaq asanın olub-olmadığına əmin olmaq üçün ətrafa nəzər saldı.

- Bəs bu danışdıqlarınızın mənə nə aidiyyatı var. – Rüstəm kişi məlumatın maraqlı yeni və çəkici olmasına baxmayaraq, onu ilk ağır iş günündə görüləcək işlər

baxımından geriyə atdığına görə spontan söhbəti mümkün qədər nəzakətli şəkildə dayandırmağa cəhd etdi.

- Elə mənim özümə də çox maraqlıdır. Son 2 ay ərzində ona yalnız müraciət edəndə danışardı. Gözlənilmədən baş verdi hər şey, birdən pencəyimin manjetini dartışdırdığını gördüm.  Soruşdum ki, nə məsələdi? Bir cavab vermədi. Sadəcə gözləri dolmuşdu. Lap doğrunu bilib danışa bilməyən lal kimi yazıq gözlərlə baxıb, barmağı ilə sizə tərəf işarə edirdi.
- Çox marağlıdır...Ancaq belə bir uşağı birinci dəfədir ki, görürəm.
- Yəqin siz onu tanımasazda, o sizi tanıyır. Belə şeylərdə olur. Kim bilir bəlkə anasını unudub ona yad olan bir insanı belə tez tanıya bilməsi sizinlə bağlı yaddaşının hardasa çox önəmli olduğunu düşünməyə vadar edir.

Bir qədər köks ötürüb əlini pencəyinin sinə cibinə ataraq kiçik bir bloknot və diyircəkli qələm çıxardı.

- İndi əziyyətdən keçib. Hər halda siz mənə zəhmət deyilsə bir əlaqə nömrəsi verin, şayət Səlimin yaddına nəisə təzə bir şey düşərsə sizdən lazımı lazımı məlumatı ala biləm.

Nömrəni diktə edib, qəribə ikilidən ayrılmışdı ki, birdən nəisə yadına düşübmüş kimi, yüz səksən dərəcə çevrilib.

- Bəs mənə deyə bilərsiz, hmm....Səlim – uşağın adını düzgün yadda saxlaya bildiyinə görə çox sevindi.- Səlim məni göstərəndə sizə nələri dedi:

Rüstəm kişi ona tanış olan sözbirləşməsini eşitdi. Sadəcə başa düşmədi bu eşitmək istədiyi və öz “iç dünyasının” hayqırtısı olan

açar söz idi, yoxsa həqiqətən samballı geyimli kişinin ağzından çıxan kəlimə. Bircə onu bildi ki, artıq ayaq üstə tab gətirə bilmir. Müəmmalı dayı-bacıoğlu gözdən itən kimi, köşkə qayıdıb özünə çay düzəltdi. Həmin açar sözün yeniyetmə Səlimlə nə kimi əlaqəsi ola bilərdi? Hansı vəchlə?
Fikirləri isə Səlimin işlətdiyi yeganə kəliməni top kimi atıb-tuturdu.
"Gecəyığışanlar"

**- 8 8 8 -**

Ayan son vaxtlar 1 metrliyinə belə yaxınlaşmadığı kirşanı 2 ildən sonra ilk dəfə istifadə etmiş oldu. Dəbdəbəli geyimlər, svorovski daşları, qızılı saat, qızılı qolbaq, gözlərə yuyanda belə güc-bəlayla itən İran sürməsi,...xeyr qaş aldırmaqdan söz belə gedə bilməzdi. Köhnə prinsiplər modern həyat tərzi üzərində nə qədər də olsa dominant idi. Hər növ hazırlıq işləri gedirdi. Şəxsiyyəti ikiləşmişdi. Bir tərəfdən tezliklə ərə getmək istəyirdi. Digər tərəfdən böyük çaşqınlıq içində olub, elə həmin gün qarşı tərəfin elçilik planlarını alt-üst etmək istəyirdi. Psixoloqlar doğrudan da düz deyirlər ki qadınlar subaylıq və evlilik fazaları arasındakı keçid mərhələsini olduqca ağır keçirir. Kimi keçid mərhələsini əsasən də nişanlı olduğu dönəmləri tam nervoz şəkildə başa vurur, hər xırda məsələyə olduqca həssas olur, məni sancma səni sancmıyım prinsiplərini əsas götürür. Kimisi isə - xüsusəndə də hərisi ilə toyu arasında ən çoxu 1 aylıq interval olub, bu dövr ərzində nadir hallarda nişanlılarını üzlərini görənlər – bu keçid

dövrünü elə tez adlamış olur ki, evlilik dövründə həmin kritik günlər barədə heç ağlına qığılcım xatirələr belə gəlmir. Ayanı daha çox birinci kateqoriya qadınlara aid etmək olardı.

“ Həyəcanlanma!” deyə özünü ələ almağa çalışırdı.

Ayan evdə İmran haqqında çox danışmışdı. Artıq onun İmranı sevdiyində heç kimin şübhəsi yox idi, Ayan bunu aydın şəkildə etiraf etməsə belə. Azdan çoxdan atası artıq fikrində israrlı idi. Ən pis halda oğlan gərək bimar və ya avara-gurun biri olmalı idi ki, atası qızını sevgisinə qovuşdurmaq niyyətindən vaz keçsin. Evdə mükəmməl hazırlıq işləri görülmüşdü, əlini ən hündürdə olan çılçıraqa atsaydın belə, toz deyilən şey tapmazdı. Masaya yalnız ağ süfrə və mer-meyvə qoyulsa da, mətbəxda artıq gözlənilən formalitələrdən sonrakı bayram əhval ruhiyyəsinə uyğun müxtəlif dadlı təamlar hazır vəziyyətdə idi. Valideynlər həyəcan içində idi, - evlərinə ilk dəfə idi ki, elçiləri buraxardılar, qohumlar həyəcan içində idi- kimisi özünün də ilk hərisini xatırlayır, kimisi isə - ilk öncə subay əmiqızları – həmin təcrübəni özlərində tezliklə yaşamaq yanğısı keçirirdi. Ayan həyəcan içində idi.

Ayan onu bəzəyən əmisi qızlarını otaqdan qovub mobil telefonu əlinə aldı. İmranın nömrəsini seçib zəng atdı.

- Salam, evdən çıxıb sizinkilər?
- Salam. Hə yarım saat olar çıxıblar. Harda olsa indilərdə çatarlar.

Söhbət bu kiçik dialoqla bitdi. Ayanın və ailə üzvlərinin gözləməkdan başqa bir çarəsi qalmadı.

***   ***   ***

Bir saat keçdi:

Qapının döyülməsi hamının yerindən dik atılmasına səbəb oldu. Bir anlıq sükut yarandı çoxdan gözlənilən qapı döyüntüsünə. Ayanın atası çevik göstərişlərini verməyə başladı. “Gülarə siz qızın yanında olun, mama sən gəlinivi də götür qapının ağzında dayan”. Atanın də özünü itirdiyi aydınc sezilirdi. Hər kəs öz yerini tutmuşdu. Qapı nəyahət 4-cü dəfə döyülmüşdü ki, Ayanın atası qapıya doğru irəlilədi. Qapı açılanda ilk öncə bir şey başa düşə bilmədi. Qapının arxasında yalnız bir orta yaşlı kişi dayanmışdı. Geyimindən isə heç də elçiliyə gələn birinə oxşamırdı. Əynində qəhvəyi dəri kurtka vardı, əlində isə qəribə nəisə tutmuşdu. Ayanın atası ağzını açmağa macal tapmamış girdə sifət kişi:

- İşıq idarəsindən gəlmişəm, - və rulon şəklinə düşmüş nazik kağız parçası uzadıb – qəbzi götürün, 6 manat 50 qəpik borcunuz var.

Ayanın atası lal dinməz çeki alıb, quru-quru “sağ ol dedi” və qapını örtdü.

Vəziyyəti şərh etmədən hər kəs əvvəlki tək qonaq otağına qayıtdı. 1 saat da keçdi. Daha sonra 2 saat keçdi. “Bəlkə yolu tapa bilməyiblər...ancaq ola bilməz bir şey olsaydı bizim nömrəmiz vardı onlarda” deyə atası düşündü. Ayan gilin ailəsi həmin gün düz 4 saata yaxın elçilərin yolunu gözlədi.

*** *** ***

Telefonun cingiltili səsi getdikcə möhkəmləndikcə, gözlərini tədricən açdı. Telefonu ovucuna alıb, hələ çay kimi axan gözlərini displeydəki yazıda mərkəzləşdirməyə çalışdı. Nömrə gizli olmasa da naməlum idi. Çarpayının qarşı divarından asılmış dördkünc çərçivəli saata baxdı. Gözləri ilə əqrəbləri tuta bilmək

üçün yerində çox var gəl etdi. Məlum oldu ki, hələ saat heç səhər  səkkiz yoxdur.  Çalışdı ki, əsəbləşməsin. Çarpayının sağındakı komod üzərdə ehtiyat saxladığı qlitsin tabletkasından dilinin altına qoyub, israrlı zəngə cavab verdi.

- Alo...
- Alo... Salam. Rüstəm bəy dönə-dönə üzr istəyirəm sizdən bu vaxt zəng vururam. İnanırsız, dedim heç olmasa doqquz olsun zəng vurum. Ancaq həyəcandan dözə bilmədim. Tanıdız da dünən sizin köşkə uşaqla yaxınlaşmışdın. Səlimlə.
- Hə tanıdım... – həvəssiz şəkildə soruşmalı oldu-...Necəsiz?
- Çox sağolun – qarşı tərəf acı bir söz eşitmədiyinə sevincək oldu
- Nə lazım idi? Buyuruz, eşidirəm
- Allah razı olsun...Deməli bizim uşağın yaddaşı özünə qayıdıb. Səlimi deyirəm. Sən demə elə hər şey sizinlə əlaqədar imiş. Ona görə sizi görcək yaddaşı tədricən bərpa olmağa başladı.

Rüstəm kişi yorğanı kənara atıb çarpayıdan qalxdı.Yoldaşı hələ də yatırdı. Oyatmamaq üçün yataq otağından aralandı. Mətbəxə keçdi.

Doğrusu kişinin son cümləsi ona dumanlı təhər gəldi. Necə yəni onunla bağlı idi. Axı bu uşağı əvvəllər ömrü boyu görməyib. Ona görə birinci verdiyi sual da məhz belə oldu:

- Necə yəni, mənimlə bağlı idi?
- Yox... məni düzgün başa düşmədiz. Əstafullah. Demirəm ki, siz  Səlimi bu günə salmısız. Sadəcə Səlimin bu günə qoyan yaramazın kimliyi məlum olub. O manyakın biridir.

Siz onu tez-tez görürsüz. Özünüz də bilmədən manyakla söhbət edirsiz. Bəs deyə bilərsiniz necə oldu ki, Səlim birdən sizi gördükdən sonra hər şeyi yada salmağa başladı. Ona görə ki, Səlim həmin yaramazı təqib edəndə, onu sizdən qəzet alan görüb.

Rüstəm azdan-çoxdan söhbətin kimdən getdiyini başa düşdü. Nə də olsa özünə söz verdi ki, "müştəri" ona əvəzsiz yaxşılıq edib və ikili münasibətdən xaric baş verənlər onun işi deyil. Nə də olsa sona kimi qulaq verməli oldu.

- Sizinlə mütləq görüşmək, lazımdır. Səlim sizinlə söhbət etmək istəyir. Sizi bilmədiyiniz bir şey haqqında məlumatlandıracaq. Həm də, sonra polisə ifadə verməli olacaqsız. Müştəriniz haqqında polisə lazımı məlumat vermək lazımdır. Allaha and olsun ki, o əclafı ya diri, ya da ölü ələ keçirəcəm.

- Nə məlumat siz nə danışırsız. Mən heç bilmirəm nədən söhbət gedir. Məndən hər gün yüzə yaxın adam qəzet alır. Məgər hamısını yadda saxlamalıyam.

Kişinin səsi sərtləşdi və danışdığı nəzakətli tonu sanki dilinin altında gizlətdi.

- A kişi, onsuzda polisə ifadə verəcəysən. İstəsən də, istəməsən də. Bilmirəm kimisə cinayət məsuliyyətindən yayındırmaq istəyirsən ya yox. Bu öz işində. Hər halda polis sənnən yazılı ifadə almaldır. Hələlik şahid qismində, sonrası hələ baxarıq – deyə hədələyici nəbzi vurdu.
- İndi mənə qulağ as, xxxxxx! Bilmirəm özüvü nə sayırsan. Baxmaram haranın tulasan,...... amma əvvəl get qoltuğuvu qaşa?

Qarşı tərəf sanki belə çevik reaksiya gözləməyirmiş kimi sükut götürdü. Telefonun dəstəyi xışıltısından məlum oldu ki, xəttin qarşı tərəfindən kimsə dəstəyi kişinin əlindən aldı. Nə kişi nə də ki uşaq səsinə oxşamayan yeniyetmə səsi eşidildi

- Salam. Dayıma görə üzr istəyirəm. Bir az əsəbidi. Bilirəm ki, sizin bu işdə heç bir əliniz yoxdur. Sadəcə sizi, onun necə yaramaz olduğu barədə xəbərdar etmək istəyirəm. "Gecəyığışanlar" sizə nəisə deyir? Mən onu çox təqib etmişəm. Hər gün sizin Vişnyovkadakı bağınıza girib, nəisə ölçüb biçirdi. Həmişə də əlində qəzet olardı.

Rüstəm kişinin ağlı biraz büdrədi. Onu Albalı qəsəbəsindəki bağına soxulan məgər həmin saxta polis deyildi?!. Elə bu barədə fikirləşirdi ki, sanki Səlim Rüstəm kişinin könlünü oxudu.

- Sizin oğlunuzun qaçırılmağından da xəbərim var. Düşünə bilmirsiz ki, necə oldu böyük cinayət halqasının əlindən asanlıqla qurtulduz. Bunlar hamısı qurama şeylər idi. Sizin şikəst... – Səlim ədəbsizlik etdiyini bilib özünü düzəltməyə çalışdı – sizin qüsurlu övladınızı qaçırılması da eləcə. Hamısı o yaramaz tərəfindən əvvəlcədən düşünülmüş plan əsasında olub. Saxta polisi də 8-ci kilometr bazarından tapıb.

## IV fəsil
## Dəyişkən həqiqət

Tezliklə toy olacaq. İnşallah. Allah qoysa. Ağılasığmaz bir şeydir. Sevgili cananı ona qismət oldu, aşiqlə məşuqə sonda qovuşdular. Sözün əsl mənasında soyuqqanlı valideynlərinin Bakılıların dili ilə desək "bayırlığı" ona mat-məəttəl qoymuşdu.

İnana bilmirdi ki, ata-anası belə asanlıqla , qapılarına elçilər “sıra-sıra dayanan” Ayanın valideynlərindən “Həri”-ni ala bilsin. Doğrusu xoş xəbəri birinci anasından eşitdi. İmran sevincindən yerə-göyə sığmırdı. Bütün gözləntiləri doğrulmuşdu. Toy öncəsi xərclərin fikirləri belə bu nikbin əhval ruhiyə qarşısında diz çökürdü.Anasını nə qədər qucaqlayıb bağrına basmaq istədisə, bunu bacara bilmədi. Özü də anlaya bilmədi nədən!? Bəlkə ona görə ki, anası elçilikdən gələn kimi əyin-başını dəyişmədən dərhal mətbəxə keçərək, həmişəki kimi arxası İmrana yemək bişirməyə başladı. Atası isə birbaşa işə getmişdi. Bəlkə də, anası sadəcə olaraq yorulmuşdu. Bununla belə anasının son vaxtlar onunla praktiki olaraq ünsiyyətdə olmaması diqqət çəkməyə bilməzdi. Elə mətbəxdəki divanda əyləşib. Anasını dilə tutmağa çalışdı.

- Sağ ol eh mama, sənnən dünyada bir dənədi. Degörüm toy barədə nə danışdız. Toyla nişanı eyni günə saldız?

Ananın yalnız əlləri hərəkət edir. Arxası İmrana olduğundan üzündə təbəssümün, kədərin və ya şablon baxışın olduğunu müəyyən edə bilmədi. Fartuku belindən açıb (üzünü çevirmədən) soyuducunun yanına bərkidilmiş asılqana keçirdi. İndi də qab-qacaq yumağa girişdi. Uzun fasilədən sonra quru-quru “Hə” cavabı verdi. İmran suallarla dolu olsa da, elə bil içində olan ikinci “Mən” onu susmağa təlqin etdi.
Səssiz səmirsiz, bulağ kimi köpürən sevincini içində boğub, gözləri anada, xəyalları göylərdə, yaxın və uzaq gələcəyini planlaşdırmağa başladı.
Ani telefon zəngi onu diksindirdi. Ev telefonunun çox gur səsi vardı. Anası heç bir olmayıbmış kimi reaksiya vermədi. “Görəsən

bu evdə məndən başqa telefona cavab verən var?!" deyə dodaqaltı donquldandı.
TALK düyməsini basıb dəstəyi qulağına kifayət qədər yumşaq şəkildə dirədi.

- Alo

Qarşı tərəfdən ciyərparəsi olan Ayanın həzin səsi eşidildi. Ayan ağlayırdı. Necə də xoş idi bu sevinc göz yaşlarını eşitmək. İmran qızı qabaqlamaq fikrinə düşdü.

- Canım, məndən incimə ancaq, hərdən sənin ağlamağın mənə elə xoş gedir ki, xüsusən də sevincdən tökülən göz yaşların. Səsin fleytanın ən həzin notu kimi ürəyi yandırıb yaxır. Hələ gözlərini demirəm. Kaş ki, indi yanında olaydım. Ağlayanda gözlərin dumduru okeana bənzəyir..

İmranın sözü  yarıda qaldı.

- Bura bax, sən nə yaramaz, sən əclaf adamsan.
- Nə..Necə ...yəni..Nöş...Nöşün. nə...
- Əclaf səni görüm parça tikə olasan. Mən necə gic oldum sənin yalanlarına aldandım, sənin kimi dəlini sevdim.

İmranın üzü qıpqırmızı qızardı.

- Ayan, mən artıq həyəcanlanmağa başlayıram, sənə nə olub...özz..özz.. özündən niyə çıx...çıxmısan?
- Heç olmasa, məni ələ salmazdın. İnsan dəli də olsa bu qədər hoqqabazlıq etməz axı. Bu lənətə gəlmiş elçilik söhbətini onda niyə ortaya çıxardın, məni biyabır etmək üçün.
- Mən heç nə başa düşə bilmirəm. Axı mama, dedi hamsı yaxşı olub. Sənin atavın razılığını alıblar. Toyu belə təyin ediblər.

Qarşı tərəf əvvəlcədən bu hücuma hazırlaşmışdı. Özünü ələ almaq üçün bir-iki-üç sayılası qədər susdu. Fikirləri cəmləmək vaxtıydı.

- Bizə heç kim gəlməyib...-deyə qısa və artıq sakit səs tembri ilə cavabladı
- Necə yəni heç kəs gəlməyib, axı valideynlərim bir az-var gəliblər yanından. – anası heç bir şey baş verməyibmiş kimi indi də yuyulmuş qazanları ağ vafli dəsmalla qurulayırdı.
- Ay axmaq, sən doğrudanda...nəyisə təhqirə keçmək istəmirəm – sənnən düz bir həftədir  səssəmir yoxdur. Sizinkilər də guya, ayın 1-i gəlməliydi, bu gün yox.
- Bəs bu gün ayın biridir də. Sənə nə olub. Xəstə deyilsən ki?-İmranın narahatlığının həddi-hüdudu yox idi.
- Bu gün ayın səkkizidir.  –
- Sən nə danışırsan – artıq mobil telefonun təqviminə əlüstü nəzər yetirmişdi, ayın 1-i olduğunu görüb ürəyi bir qədər sakitləşdi. Yəqin Ayan sinirli olduğundan bir qədər sayığlayır, deyə düşündü -  ayın biridir

Ayan yenidən fasilə etdi. Sanki özü  də bilmədən səhvə yol verdiyini anlamışdı.

- Yaxşı lap olsun bu gün ayın biridir. Bəs de görüm, indi anan yanındadır.
- Hə nə olub bəyəm? İstəyirsən yanında soruşum bu gün harda olduqlarını. Soruşum?

İzdivacsız ailədə doğulmuş, lakin anası tərəfindən “atan müharibədə ölüb” deyilən və uzun illər bu fikirlər məğrurcasına yaşamış, insana birdən biri sən “bicsən” deyilən zaman nə

effekt yaranırdısa, Ayan da onu İmran üzərində qisas aktı olaraq tətbiq etmək fikrində düşdü.

- Soruşma, onsuzda cavab verən olmayacaq, ....onsuz da bu dəqiqə sən evdə təksən.

İmranın qanı qaraldı. “Əstafullah” deyə dodaqaltı Ayanın halına yandı. Bu qıza nə oldu belə.

- Sən nə danışırsan!? – xəfifcə güldü – Mamam bu dəqiqə yanımdadır qabları yuyur.
- Ay yazıq. Bir ananı çağır görüm sənə hay verir.
- Ayan artıq axmaqlıq edirsən.
- Əslində axmaq sənsən ki,...effekti bir qədər də uzatmaq üçün ölümcül zəhərin miqdarını azaltdı –sən bir hay ver anana, bir çağır onu?

İmran dəstəyin səsötürmə dəliyini barmağı ilə örtdü ki, axmaq vəziyyətə düşməsin.

- Mama? Ay mama! – anadan səs-səmir çıxmadı – ürəyi sanki bir anlıq dayandı. Udlağı düyünlənmiş şəkildə tənəffüsünü əngəllədi. Dərindən öskürüb özünü ələ almağa çalışdı. Çox güman növbəti qorxulu  yuxulardan idi. Sadəcə təmkinli olmaq lazım idi. Dəstəyi yenidən qulağına dirədikdə, Ayanın yenidən hönkürtü ilə ağladığını eşitdi.
- Nə oldu hay verdi? Sualın cavabı məlumdur. Yox. Çünki sən 10 ilə yaxındır ki, həmən evdə tək yaşayırsan. Sənin anan qardaşının ölümünə dözməyib çoxdan dünyasını dəyişib, sən təksən, tək tənha. Səni müalicə etmək lazımdır. Sən...Mən inanmırsansa ananın sifətini yada

sal, ....yadına sal ki , sonuncu dəfə onun üzünü nə vaxt görmüsən?

İmranın saçları biz-biz durmuşdu. Belindən sərin tər damcılarının süzüldüyünü hiss etdi. telefonu əlindən yerə çırpdı, anası isə artıq onu sözün əsl mənasında qorxutmağa başlayırdı. Telefon parça tikə oldu,ancaq anası ikinci siklə start vermişdi – bu nə dəhşətdir – axı yeməyi bir dəfə bişirmişdi. İkinci dəfə soğan doğramaq nəyə lazım idi, anası niyə heç bir şeyə reaksiya vermirdi?!. Vücudundan qan əvəzinə turşu keçirdi, ayaqları tədricən qıclaşırdı. Əlini nə qədər sıxdısa, bu üzücü yuxudan ayıla bilmədi, üzünü şillələdisə də xeyri olmadı. Bircə əlac qalırdı, həqiqətin yuxu və ya yuxunun həqiqət olduğunu müəyyən etməkdən ötəri. Ürəyi donmuşdu desək yanılmarıq. Tədricən, metrin 1/3 hissəsi addımlarıyla anasına doğru yaxınlaşdı. Artıq  həyəcanın ən pik anına saniyələr qalırdı. Bir şeyə əmin idi ki, indi nəticənin nə olacağından asılı olmayaraq o özündən gedəcək,...buna vücud bir yana, heç insan “ruhu dözməzdi”. Anası birdən hərəkəti dayandırdı. İmran da avtomatik olaraq özünü saxladı.

- Ana...Ay ana. Qurbanın olum məni qorxudursan....Bir hay ver...Sənə nə olub.- altı yaşlı körpə tək sızıldamağa başladı.

Anadan heç bir reaksiya yox idi. Sadəcə hərəkəti dayandırmışdı.Geriyə də çevrilmirdi ki, İmranın iztirablarına son qoysun. İmran əlini tədricən anasının çiyninə tərəf uzatmağa cəhd etdi. Mətbəxdə mütləq sükunat hökm sürürdü. Köhnə səsli çinar soyuducu belə  hərəkətsiz dəmir parçasına çevrilmişdi. İmran özündə iradə tapıb, anasını anidən özünə tərəf çevirmək

üçün, çevik hərəkət etdi...Erkən uşaqlıq illərində hamamda çimərkən ovucu ilə istu su buxarlarını tutmağı sevərdi...Əli anasının bədənindən heç bir materiyaya toxunmadan mətbəx masasına çırpıldı. Döşəmə İmranın ayağının altından qaçmağa başladı, tavanda da qəribə metamarfozlar və rəngli kollaydlar baş verirdi. Ürəy ağrıları və qorxuları geridə qalmışdı. Anası isə yenidən əllərini işə salıb soğanı doğramağa davam etdi.  Otağın interyeri tədricən dəyişirdi. Divar kağızları qaralır,  əksər yerlərdə yeni yarıqlar, cırıqlar peyda olur. Tavanda su basmış evlərdəki kimi qara ləkələr, hörümçək torları əmələ gəlirdi., otağın havası da anidən dəyişməkdə idi. Nəzərlərini anasına qaytaranda artıq  ona tamamilə yad olan, çirkab içində olub, yerdə kağ-kuğuzun, lazımsız qəzetlərin, müxtəlif kulyokların və cındır paltarların  yer aldığı mətbəxdə tək tamamilə tək olduğunu gördü. Gözləntiləri baş verdi. Huşunu itirib tarappılıtıyla, uzun illər silinmədiyindən qartmağ bağlamış linonim döşəməyə çırpıldı.

*** *** ***

Mətbəxdə bir neçə saat huşsuz vəziyyətdə qaldığını sandı. Halbuki yanılırdı. Tükürpədici faza keçidindən saniyələr keçirdi. Bu saniyələrin bir əsrlik intervalı olsa belə. Ayağa qalxmağa taqəti yox idi. Yerə çırpdığı telefonun anten hissəsi sınsa belə hələ əlaqə kəsilməmişdi. Ayanın ardıcıl “Alo”-larını eşitmək olurdu. İmranın sızıltısını eşidcək, yenidən danışmağa başladı. İmran hər şeyi eşidirdi.

- Hə deməli həqiqətin birinci mərhələsini keçdim sənə.  İndi ən əsasına hazır ol. Yadındadır mən sənə demişdim ki, xalamoğlunu bir manyak öldürmüş və bütün izləri yoxa

çıxarmışdı. Sən dedin ki, onun evini gedib yoxlayacam. Həmən manyak Yetimin. Adı da Murad idi. Sən evin içinə girdin?

- Hə yadımdadı- deyə artıq özünə gəlirdi. – Bunun məsələyə nə aidiyyatı var. Bu qədər olanlardan sonra. Mən yəni dəliyəm. Niyə gözümün qabağına bunca illər valideynlərim görünürdü... Hə həmən gün pusmuşdum yaramazı.
- Bəs nə oldu?
- ...Dəqiq yadımdadır ki, qulağım qapısına dirəmişdim. Sonra onu bildim ki, huşum özümdən getdi.
- İndi hazırlaş daha bir həqiqətin üstünü açıb.
- Nə həqiqət nə danışırsan.
- O yetimin adı yadındadırsa Murad idi. Mən onu heç vaxt görməmişdim. Xalamgili görüblər. Bu məsələni hələlik qoyaq bir yana. Səninlə çəkdirdiyimiz şəkilləri bir gün xalam gilə göstərirdim. Mobil telefonun yaddaşına olan şəkilləri deyirəm. Onsuz da dırnaq arası sizinkiləri gözləyən vaxtı bikarçılıqdan hamının ürəyi sıxılırdı. Xalam bizim şəkilə baxan kimi dili tutuldu. Üzü qıpqırmızı qaldı. Barmağı ilə sənin şəklinə işarə edib bir söz deyə bilmirdi.

İmranın artıq heç bir şey vecinə deyildi. Onsuzda həmin dəqiqə özünü dünyanın ən axırıncı ən bədbəxt adamı bilirdi.

- Birdən dilə açıldı, özü də necə açıldı. Səni göstərib,...səni göstərib ...səni tanıdığını dedi.

Ayan göz yaşlarını içində boğdu.

- Demə sən, həmin əclafsan, sənin adın İmran zad deyil. Sən Muradsan. Həmin yetim ki, mənim xalamoğlumu öldürən.

İmran başında qəfil sancı hiss etdi. Gözünün önündə hər şey vibrasiya edirdi. Mətbəxin çirk basmış şüşələri bu dəhşətli vibrasiyadan parçalanaraq xırcım-xırcım oldu. İçində total dəyişiklik hiss etdi.

*** *** ***

Xəttin qarşı tərəfindən çıxan vahiməli səsslər onu diksindirdi. Belə reaksiya gözləmirdi. Yaralı canavarın yanğılı səsinə bənzəyirdi. Evdəkilərdən gizli zəng vurmaq üçün distansion ev telefonu ilə hamamdan danışırdı.

- Alo ... Alo...

Qarşı tərəfdən fısıltı eşidilirdi. Get-gedə dərinləşən və içində müxtəlif acılı günlərin və hadisələrin fəsadlarına qurşanmış bir fısıltı. Anidən bütün səslər kəsildi.

- Alo...Alo..
- Alo – qarşı tərəfdə telefonu tam yad bir insan götürdü. Orta yaşlı kişi səsini xatırladırdı – Bəli xanım, eşidirəm. Sizə kim lazımdır?
- İmran oradadır? İmrana nə olub.
- İmran? Burada beləsi yaşamır.
- Bəs siz kimsiz?
- Mənim adım Muraddır xanım. Yəqin səhv düşmüsüz.

Ayan şəxsiyyəti ikiləşmiş İmranı Murada çevirdiyinə çox peşman oldu. Onu sevən, onunla hər zaman mehriban olan, ona çətin gündə dayaq olan İmran idi.

- Xahiş edirəm dəstəyi İmrana verin.

Kişinin səsi vəhşi forma aldı

- Birdə onun adını çəksən, səni, sənin ailəni də doğram doğram...

Təhdid sona çatmamışdı ki, Ayan dəstəyi yera atdı. Yalnız bir çıxış yolu qalırdı. Polisə müraciət etmək.

AB...

## V FƏSİL
## ƏL-HÜCUM

Təyinat vaxtını dəyişmək olmazdı. Böyük suiqəsdin üstü açılmalı idi. Artıq Murad tam şəkildə İmran şəxsiyyətini sıxışdırıb çıxarmışdı. Bununla belə Murad, əvəllər şəxsiyyətlər arası keçidlərə nəzarət etdiyindən, planın baş tutması üçün müvəqqəti İmran tipajından istifadə etmək məcburiyyətində idi. Heç bir həyəcan keçirmədən mühafizəçilərin əyləşdiyi foedən əlində 1 litrlik Fanta - içəri daxil oldu. Tərcümə xidmətinin otağına aparan koridora daxil olurdu ki, bayaqdab başı tabellərə qatışmış mühafizəçi birdən ona

- Qaqaş, sən bayaqdan hardaydın?

Murad özünü itirməsə də, nəinsə baş verdiyini duydu

- Mən? su almağa getmişdim.
- Səni bayaqdan Samir axtarır.
- Hansı Samir axran, yoxsa 12 xəbərlərini aparan.
- İbadov Samir- “XəbərPlus”
- Oldu çox sağol.

- Sağ ol mağol yoxdu. İş yerini icazəsiz tərk etdiyin üçün izahat yazmalısan. Səhər çıxanda bizə təqdim elə.

Lənətə gəlsin bu sistem. İzahat yaz, sonradan nəyi izah etməyindən, nə faktlar ortaya qoymağından asılı olmayaraq sənin maaşından azı 4 faiz çıxsınlar. İzahatına həqiqətən baxılmasını istəyirdinsə, gərək yazdıqlarıın başında biclik edib “izahat” deyil “bildiriş” yazaydın. İzahatı bir başa mühafizəçiyə verənd işlər lap fırığ olurdu.  Sistem elə qurulmuşdu ki, sənin cəza faizlərin avtomatik olaraq sənə izahat yazdırmış mühafizəçinin maaşına artırılsın və bu yolla axranlarda daha çox “ÇePe” tutmaq həvəsi yaransın. Üstəlik “boş-boş ” şeylərə görə, “şap-şap” geymisən!, “iş yerində yatmısan”, “iş yerində kolbasa çörək yemisən!”, “İş yerində ağzından söyüş qaçıb” “İş yerinə saqqalı gəlmisən”... Bütün xəbərdarlıqlarda da “iş yeri” söz birləşməsinin olması işçiləri lap cana gətirmişdi.

Murad İmrandan fərqli olaraq onsuzda təyinat vaxtından sonra bu kanalda qala bilməyəcəyini qulaqda sırğa kimi möhkəmcə yaddında saxlamışdı. Mühafizəçiyə etiraz etmədən

- Oldu yazıb qoyaram stoluna- deyib otağına qayıtdı. Murad üçün geriyəsayım başlamışdı. Yarım saata hər şey bitməli idi. Daha bundan mükəmməl fürsət bir daha ələ düşə bilməzdi. Üstəlik artıq evə də qayıda bilməzdi.

*** *** ****

- Bu izahatım, bu da bildiriş
- Hansı bildiriş – mühafizəçi bildiriş adıyla ondan şikayət edəcəyindən  qorxdu
- Rauf müəllim tapşırmışdı, ekrannara gələn ümumi keçirici paneli yarım saat əvvəl keçirəm. Yadımdan çıxmışdı ona

görə, yazdım. İndi ümumini keçirirəm, 15 dəqiqəyə perezaqruzka verəcəm- deyə özündən uydurmalı oldu.

Mühafizəçinin başı rabitə qovşağında oturan qıza qatışdığından, 5 saylı təlimatın kobudcasına pozulduğunun fərqinə belə varmadı.

- Bir az tez ol, çalış heç olmasa verlişin ortasına baxa bilək.
- Oldu –deyə Murad həyəcanını boğmağa çalışdı. İlkin cəhd uğurla yekunlaşdı.

Deməli mühafizə xidməti azı 15 dəqiqəlik efirdə nəyin getdiyini görə bilməyəcək.

****Bir neçə dəqiqə sonra

Heç kim fikir belə verməmişdi ki, İmran/Murad bu dəfə həmişənkindən fərqli görünürdü. Qolun heç vaxt saat olmayan İmran/Murad bu dəfə elektron Casio taxmışdı.

Casionu həqiqi vaxtı göstərən otaq saatı ilə sinxronlaşdırıb. Keçirici paneldən lazımı 2 kabeli çıxardı və ortadakı dəmir keçiricini sola doğru itələdi. Gecikmək olmazdı, artıq efirə 3 dəqiqə qalmışdı. Koridora çıxıb binanın sonunda olan baş efir otağına mümkün qədər iri addımlarla yeriməyə başladı. Baş efir, efir və çəkiliş otaqları – onların qapıları- fors major halları nəzərə alındığından elektron sistemlə təchiz olunmuşdu. Qapını açmaq üçün kartdan istifadə olunurdu ki, bu kartlar da yalnız səlahiyyətli şəxslərdə - o cümlədə, efir rejisyoru, aparıcılar, prodüserlər, mühafizə xidməti (xidmətə ümilikdə 1 açar-kart verilmişdi) və fövqaladə hallar üçün şirkət prezidentində olurdu.

Baş Efirdə qapının aralı olmasında, növbədə Ceyhunun olduğuna əmin oldu. Ceyhun kart istifadəsinə heç cür vərdiş edə bilmirdi. Qapını xəfifcə açıb Ceyhunun kresloda arxası

İmran/Murada əyləşdiyini gördü. 24 il tele rejisyor stajı olan Ceyhunun onun gəlişindən xəbərsiz olduğunu bilib, cibindən lazımı uydurucu dərmanı çıxaraq cib dəsmalına yaxdı. Tərəddüd etmədən, xüsusi soyuqqanlıqla kresloya tərəf atılıb, dəmalı arxadan Ceyhunun üzünə sıxdı. Üç-dörd saniyə çapaladıqdan sonra, əzələləri boşalan Ceyhun, narkoz verilmiş adamlar kimi, huşunu itirdi. Gecikmək olmazdı. Baş efir məsələsinə də bir quş...indi efir otağına- deyə saatındakı dəqiqələri fiksə etdi. Qapının birdəfəlik bağlanması üçün divarda asılmış elektron açar qutusundan qırmızı və göy məftilləri qırdı. Qapını bağlayıb, artıq onun kilidə düşdüyünə əmin oldu. Efir otağında baş efir otağından fərqli olaraq 3 nəfər böyük siferblat qarşısında və nəhəng monitorların altında əyləşirdi. Onlar yayım və çəkilişlər zamanı səsə,görüntüyə, keçidlərə vəs. kimi mürəkkəb əməliyyatlara nəzarət edirdi. Murad bunun üçün də bir əncam çəkmişdi.

- Mənə baxın! –deyə ucadan çağırdı

Oturacaq nöqtələrinə birləşdirsən, üçbucaq şəklində əyləşmiş 3 insan başı eyni vaxtda arxaya çöndü. Yazıqların rəngi ağappaq olmuşdu. Qışqıranın televiziya prezidenti olduğunu güman edirdilər, ancaq ağıllarına da gəlməzdi ki, çığıran əlində tapanca ilə onları nişan almış İmran kimi tanıdıqları Murad olsun. İmranın qəribə şəxsiyyəti, işindəki soyuqqanlılığı,artıq kanalda kifayət qədər vaxt işləməsinə baxmayaraq bir çoxları ilə tanış olmaması, tanış olduğu insanlarla da, yalnız qısa ünsiyyət qurması- bunlar hamısı əlində tapanca olanın nə qədər ciddi olduğunu düşünməyə və belə bir soyuqqanlı insanın elə soyuqqanlı şəkildə atəş də aça biləcəyi ehtimalının yüksəkliyinə

inanmaq məcburiyyətində qoyurdu. Zarafatdan, şit lağ-lağadan söhbət gedə bilməzdi.

- Sakit şəkildə, səs küy salmadan, mənimlə otaqdan çıxırıq,...yoxsa mən özümə cavabdeh deyiləm. Eşitdiz?

Hər üçü donmuş vəziyyətdə qalmışdı. 32 yaşlı, kök bədən quruluşuna məxsus səs rejisyoru, Amili, təbiətcə çox ağciyər olduğundan artıq tər basmışdı. Dişlərinin bir-birinə dəyməyindən, tir-tir əsdiyini sezmək olurdu.

Murad bir qədər əvvəl etdiyi hərəkətlə kapının kartla açılıb-bağlanmasını təmin edən qutunu naqillərdən ayırdı. Ortada durmuş Kamrana –

- Efiri qoş –
- Axı hələ 3 dəqiqə var?!- deyə nə qədər "tormoz" olduğunu sonradan başa düşdü. Əgər əlində silahlı efir otağına girirsə deməli, onun yalnız bir məqsədi ola bilərdi, efiri zəbt etmək,milyonlarla tamaşaçıya müraciət etmək. Ani olaraq beynindən oxşar ssenarili film və ya musiqi klipi keçdi, heç özü də dəqiq bilmədi hansı.
- Qoş dedim sənə! -Murad yenidən vahiməli səslə çığırdı.

Kamran dərhal efir verdi. Reklamlar dərhal kəsilərək, Xəbərplüs verlişinə əl-üstü hazırlıq işləri o cümlə, aparıcı Samirin qalstukunu bağlaması, qrimorların onun üzünü kirşanlaması canlı yayıma getdi. Artıq 1 dəqiqədən də az vaxt qalırdı. Çəkiliş otağına girib arxadan qapını pərçimləmək lazım idi.

Murad tapancanın lüləsi ilə qapıya doğru işarə etdi. Hər üçü lal dinməz koridora çıxdı. Gecikmək olmazdı. Dəhlizdə mühafizə xidmətinin gözündən yayınmaq üçün mümkün qədər tez çəkiliş otağına girmək lazım idi. Xoşbəxtlikdən və ya çoxları üçün

bədbəxtlikdən koridorda  özlərindən başqa bir nəfər də gözə dəymədi.Murad əlindən tapancanı buraxmadan  - yavaşdan, çəkiliş otağına girməyi tapşırdı. Kamran kartını detektora tutaraq  qapını açdı. Tam çaşqınlıq içində kanal əməkdaşları müəmmalı və “terrorçu”  tərcüməçinin müşayəti ilə çəkiliş otağına daxil oldu.

*** *** ***

- Haydi... tez qoş BTV-ə. De, pult stolun altına düşüb. Tez ol 2 dəqiqəyə başlayır Xəbərplüs.

Pultu axtarmaq üçün heybətli  Zibeydə xala darısqal qonaq otağını hələy-vələy etmişdi. Çəkisinin həddən ziyadə çox olmasına rəğmən, istədiyi şey olanda,  məqsədinə çatmaqda çeviklik baxımından heç də normal çəkili insanlardan geri qalmırdı.

16 yaşlı qızı Zeynəb pultu tapıb dərhal “pover” düyməsini basdı. Hər ikisi verlişin başlamasına 2 dəqiqə qaldığından , hazırda reklam getdiyini güman edirdi. Ana-bala əvvəlcə nəyin baş verdiyini anlaya bilmədi. Qalstuku yarımçıq taxılmış aparıcı Samir kameranın obyektivinə deyil fərqli istiqamətdə baxırdı. Sonra kiminsə sərt göstərişindən sonra fonda daha bir neçə şəxs göründü və onlar aparıcı ilə simaları ağ-appaq olmuş vəziyyətdə  divan tərəfə toplandılar. Xüsusi geyimdə olmalarından onların telekanal işçisi olduğu o  dəqiqə sezilirdi. Gözlərini bir bucağa zilləyib, dəhşət və çaşqınlıq içində nəyin baş verəcəyini səbirsizliklə gözləyirdilər. Eləcə də Zibeydə xala qızı Zeynəblə yerlərində donub qalmışdılar. Əvvəlcə bunun yeni növ şou xarakterli zarafat olduğunu düşünsələr də, ekranın

ucundan əlində tapanca tutmuş bir gəncin görsənməsi onların çaşqınlığını bir qədər də artırmış oldu. Mikrofon yalnız aparcının köynəyinə quraşdırıldığından, silahla hədələyən şəxsin nə dediyini eşitmək olmurdu. Terrorçunun yaxınlaşması ilə səslər eşidilməyə başladı.

- Siz - hamınız Samirin yanına – bax belə -- səsiniz çıxmasın... Sən, hə səni deyirəm – bir qədər sıxlaş bax belə. Mənfur suiqəsdə elə sizdə cəlb olunmusuz. Bu gün bunun axırınca çıxacağam. Qoy kameraya sizə də düşəsiz.Xalq- insanlar “zamanla oynayan” yaramazları tanısın.

Kimi tanımadığı yerdə azdırılmış pişik kimi, oyan-buyana nəzər salır, kimi yerində yarpaq kimi tir-tir əsir, kimi də ümumiyyətlə heç nədən baş çıxara bilmədiyindən terrorçuya diqqətlə qulaq asırdı

- Zeynəb tez, Həbibə zəng vur. Belə şey həyatda bir dəfər olur. Buna mütləq baxmalıdır. Mən də mobilniylə atana, qardaşına xəbər verim

*** **** ***

Mühafizə xidməti:

- Bu tərcüməçi lap ağını çıxardı eh. Hələ maygülüyə demişdim, Xəbərplüsa qədər işini qurtarsın
- Hələ bizim ekrana göndərmiyib?
- Yox , gələ ... ancaq qara fon göstərir. Heyif o qədər maraqlı xəbərlər olmalıydı ki bugün. Danışan sincab göstəriceydilər.
- Danışan sincab...Nə danışırsan...Buna mütləq baxmaq lazımdır. Dur get, otağına, de ki tez qoşsun.

Həmin an ortadakı telefon zəng çalmağa başladı. Mühafizəçilər həyəcan dolu baxışlarını mübadilə edib, bir an gözləməli oldular. Özlərini şirkətdə işləyən tanıyandan bu – üzərində nömrə yığmaq üçün düymələri olmayan telefonun bir dəfə olsun cınqırı belə çıxmamışdı. Yaxşı bilirdi ki, bu telefona zəng yalnız şirkət prezidenti və vitse-prezidentindən gələ bilərdi.

- Götür telefonu-
- Mən niyə götürüm eh, mənə iş tapşırdun gedim, yerinə yetirim.

Növbə rəisi ta mübahisə etməyin mənasız olduğunu anladı, üstəlik sirlər dolu telefon artıq 4-cü dəfə idi ki, zəng çalırdı. Yumruğunu ovucuna sıxıb, sağ əli ilə dəstəyi qaldırdı.

- Alo
- Sənə 2 dəqiqə vaxt verirəm, bu efirdə olan biyabırçılığı aradan qaldırmağa, yoxsan sənin gəlib meyitivi...
- Bağışlayın...Nəsə olub.
- Siz orda mal yerinə otuzdurmuşam, qaç efir otağına yayımı təcili dayandır. Üstündə silah var?
- Hə - tam çaşqınlı içində avtomatik olaraq cavab verdi.
- Tələs... mən artıq polisə xəbər vermişə, 10 dəqiqəyə çatırlar ora.
- Oldu! – deyib ilk öncə arxiv otağına atıldı ki, tərcüməçinin söndürdüyü monitorda əslində nələrin getdiyini görə bilsin. Növbə rəisi gözlərinə inana bilməti – hansısa bir dığa əlində silah, bütün işçiləri barmağına sərimişdi. Başa düşdü ki, içəri silahlı şəxsin keçməsi onun peşəsi bahasına başa gələcək, ancaq bu ən yaxşı halda olacaqdı. Əsası öhdəliklərini lazımı səviyyədə

yetirmədiyinə görə 3 ilə yaxın həbs cəzası və ya şərti cəza ala bilərdi.Səhvini yalnız özü düzəldməli idi. Tapancanı koburadan çıxarıb, qoruyucunu çəkdi.

*** **** ***

- Samir məni insanlara , milyonlarla aldadılmış Azərbaycanlılara, eyni aqibəti bölüşən yüz milyonlarla dünya əhalisinə təqdim et zəhmət olmasa

Samir əvvəl tərəddüd etdi, ancaq tapancanın alnına tuşlandığını görcək udqundu və "həyat şirindir" deyib terrorçunun istəyini yerinə yetirdi. Bir qədər qabağa gəlib, kameranın obyektivinə baxdı

- Hörmətli tamaşaçılar, buraxılışı verə bilmədiyimizə görə dönə-dönə üzr istəyirəm.
- Məni təqdim et!
- Gördüyünüz bu şəxs, şirkətin tərcüməçisidir....Bağışla adın yadımda qalmayıb.

İmran/Murad artıq məşhur aparıcılardan bir neçə dəfə belə əda görmüşdü. Ona görə pərt olmadan, üzünü operatorsuz qalmış kameraya tutdu.

"Bir başa keçirəm məsələyə...Siz ey insanlar, böyük sui-qəsdin böyük yalanın qurbanlarısız. Siz hər biriniz özünüz də bilmədə eksperiment siçanısınız,...bədəninə sınaq iynəsinin necə yeridildiyini hiss belə etməyən siçan.... xəbəriniz belə yoxdur ki, bu gün əslində ayın İyunun 9-u deyil. Bəli düz eşitdiniz, bu gün ayın 2-i dir. Ağlınıza belə gətirə bilmədiyiniz bir gizli qurum var. Bəziləri onu "Gizli yeddilər" bəziləri isə sadəcə "7" adlandırır. Onlar öz fırıldaqlarını, böyük siyasi oyunlarını, iri iqtisadi

maxinasiyaları həyata keçirə bilmək üçün təqvimi 7 gün önə çəkirlər. Nə qədər məntiqsiz gəlsə də,  əllərində olan kollosal silahla onlar bu planlarını həyata keçirmiş olur,... Ehtiyatlarında 7 gün saxlayırlar. Düzgün tarixi bilmək üçün bu yalançı təqvimdən 7 gün çıxın. Hər dəfə nəisə plan üzrə getməyəndə, qış vaxtına keçən zaman saat əqrəbini geriyə çəkən kimi, təqvimi 7 gün dala çəkirlər. Ki hər şeyi yenidən başlaya bilsinlər. Bəs onlar yüz  milyonlarla insanın necə gözünü yumur. Çox sadəcə onlar kütləvi informasiya vasitələri ilə öz kollosal gipnoz texnologilarını işə salırlar. Heç bilirsiz, il ərzində neçə dəfə vaxtla manipulasiya edirlər? Təkcə bu ay 2 dəfə zamanı qurdalayıblar.

Girov götürülmüş efir işçiləri söz əsl mənasında donub qalmışdılar, kiminə beyninə bu fantastik görünən fikirləri yeriyir, kimisi də bir ilə yaxın tanıdıqları sadə tərcüməçinin nə dərəcədə təhlükəli insan olduğunu anlamağa başlayır. Samir isə ilk anlarda hoflansa da, sonradan özündən asılı olmayaraq sevindi. Birincisi verlişin reytinqi ən azı 1 ay ən yüksək olacaq, verlişdə baş verənlər haqqında ayrıca verlişlə, tok şoular, “lambada” xəbərlər, internetdə ən çox baxılan kadrlar, xarici kanallardan müsahibə və s., hər şeyin itkisiz keçinəcəyi təqdirdə bu əslində kanalın xeyrinə idi ki, ziyanına deyildi.  Üstəlik özü də mistik, fövqəltəbii, paranormal hadisələri, suiqəsd nəzəriyyələrini sevdiyindən terrorçu-tərcüməçinin danışdıqları, ona bu illər ərzində oxuduğu kitablardan daha maraqlı gəldi.

“- Məndən bir işarə, bunu təsdiq edən əlamət istəyə bilərsiniz...buyurun...telekanallarda, radioda, internetdə

“günəşdəki partlayışla əlaqədar maqnit qasırğası gözlənilir” tipli xəbərlər gəldisə, deməli bu yaramazlar liqası növbəti dəfə vaxta barmaq etməyə hazırlaşır. Maqnit qasırğası əslində bir bəhanədir, kollosal gipnos siqnallarından sonra insanların çoxunda güclü baş ağrıları yaranır, ürək xəstəlikləri olanlar böyük ehtimalla məhz bu süni fazalar zamanı dünyasını dəyişir. Deyirlər insan ömrü qısalır, ozon qatı deşilir, buzlar əriyir. Hamsı bu əclafların hakimiyyət, sərvət və nüfuz istəklərindən irəli gəlir. İstəyirsizsə...

Murad cümləsini tamamlaya bilmədi, o dəqiqə qapı çırpılaraq, içəri əlində silah olan 3 mühafizəçi və 2 çevik polis əməkdaşı daxil oldu. Muradın əlində silahı və girovların kifayət qədər təhlükəsiz məsafədə dayandığını görüncə asayış keşikçiləri dərhal atəş açdı. Hayküy, ah-nalə sədaları altında Muradın cansız bədəni ətrafa qan sıçrayaraq çəkiliş otağındakı bozarmış kavralit üzərinə sərildi.

## VI Fəsil

## **“MÜHAZİRƏ”**

3 il sonra
MTN Akademiyası
Manyakal Psixologiya fənni üzrə mühazirə

Kamran müəllim hər dəfə gözünü mühazirə üçün hazırladığı konspektdən ayıranda, gözucu qrupa nəzər yetirir və mülki təhsil ocaqlarından fərqli olaraq buradakı yüksək nizam-intizam atmosferinə valeh olurdu. 50 ə yaxın tələbə şüşə kimi par-par parıldayan, bir birindən seçilməyən mavi kursant uniformasında sanki sinxron şəkildə hər dediyi cümləni dəftərə köçürürdü. Maraqlanmasa da, hər halda qrupda azından 2-3 “daydaylı” tələbənin olduğuna əmin idi. Ancaq burada tələbənin ədabaz bir hərəkət etməyə cürəti belə çatmazdı. Qrup yoldaşları dərhal onu məhv edərdi. Bərabərlik duyğusu və demək olarsa vərdişi

ildən-ilə qrupdan-qrupa daha da möhkəmləndiyindən, bir yazılmamış kursant kodeksinə çevrilirdi və hər biri bu kodeksə ən sadiq şəkildə riayyət etməyə can atırdı.
Artıq istiyə tab gətirə bilmədiyini görüb, ona ən yaxında əyləşmiş kürən –göygöz tələbəyə - Tərlan bir zəhmət çək pəncərələri aç!
Göstəriş dərhal yerinə yetirildi.

“... 5 ildən 7 ilə kimi həbs cəzası düşür.” – Kamran müəllim cümləni tamamlayıb, tələbələrə qələmləri yerə qoymağı tapşırdı

- İndi növbəti mövzunu yazdırmazdan əvvəl, bu haqqda bir giriş vermək istəyirəm,...dərsimiz yerli manyakdan – şəxsiyyətin ikiləşməsinin qurbanı olmuş, zaman pozuntuları ilə bağlı maniyalara qurşanmış və dırnaq arası böyük suiqəsdin qarşısını almağa çalışmış bir sadə tərcüməçidən. Aranızda yəqin ki, onu tanımayan olmaz. İmran və ya Murad adlı həmin şəxs 6 dəqiqəyə yaxın telekanalda efir vaxtını işğal etmişdi. Bir il ərzində telekanala işə düzəlmək uğrunda əlindən gələni etmiş, yüzlərlə CV göndərmiş, hər kadr seçim aksiyalarında iştirak etmiş, daha sonra işə düzəldikdən sonra 6 dəqiqəlik efir üçün 1 ilə yaxın böyük plana hazırlaşan həmin şəxs əlində tapanca ilə efir işçilərini girov götürmüş, elektron idarə olunan qapıların modulatorlarını sındıraraq qapını sındırmış və xalqı dırnaqarası gipnozdan oyatmağa çalışmışdı. O bəzi qüvvələrin zamanın manipulasiyası ilə məşğul olduğunu və nə isə düz getmədikdə KİV vasitəsilə təqvimi geri çəkdiklərini iddia edirdi. Kollosal gipnoz vasitəsilə. Yəni bütün dünya əhalisi böyük suiqəsdin qurbanıdır - əgər dediklərinə inansaq.

Sevimli qızılı rəngli diyircəkli qələmini barmaqları arasına alıb ayağa qalxdı və auditoriyaya tərəf yaxınlaşdı.

- Uşaqlar bir şeyi yadda saxlayın ki, heç bir adam elə belə manyak və ya şizofren olmur. Hər zaman kənar təsirlər və ya insan faktoru, fors-major, və digər qeyri-müəyyən səbəblər .Elə Murad da istisna deyil. Təxminən 10-12 il əvvəl Murad bəlkə də dünyanın ən bəxtəvər insanlarından sayıla bilərdi, Kazan şəhərində restoran sahibi olan zəngin atası, evdar anası, özündən kiçik qardaşı. Nəinki məhəlləsinin hətta demək olar ki bütün

qaldığı rayonun ən savadlı və öndəgedən şagirdlərindən idi. Qonşuluqda insanlar onun valideynlərinə belə oğula görə həsəd aparırdı, həmyaşıdları paxıllıq edirdi. Sifətdən də gözəl biri olması onu qızların sevimlisinə çevirmişdi. Həyatda yalnız uğur, irəliləyiş və sakit həyat müşahidə edir, yaşayırdı. Bunlar hamısı sadəcə boş sözlər, dediqodular deyil. Efir işğalından sonra MTN və DİN onun əlbir olduğu insanların olub-olmadığını araşdırmaq, gələcəkdə belə halların təkrarlanmaması üçün əməlli başlı araşdırma aparmış, bütün qonşular, qurbanların ailələri əməlli başlı dindiriliblər.
Murad və ailəsinin xoşbəxt , maddi cəhətdən həddən ziyadə təminatı çoxlarının boğazında yekə tıxa çevrilməyə başlamışdı. Bakı da hələ deputatlar şəxsi kompyuterin nə olduğunu bilmədiyi halda, Murad özüylə 10 min dollarlıq Toşiba noutbuku gəzdirirdi. Atasının ona aldığı geyimlər, Bakıya yalnız 3-4 il sonradan gətirilirdi. Qərblə hər şeydə ayaqlaşır, dəbdə 3 addım öndə olurdu. Nəinki Murad, elə bütün ailəsi də.
Ailənin uğurlarına sevinə bilməyən bir neçə alçaq insan bir araya gələrək, çirkin pul qazanmaq fikrinə düşür. Atasının varidatın xəbər tutub, kiçik qardaşını oğramağı qərara alırlar. Elə hər şey də bundan sonra başlayır. Suiqəsd planında 4 nəfər iştirak edir. Onlardan 2-i qətl və oğruluqla bağlı məhkum olunmuş keçmiş məhbuslar olur. 3-ü iştirakçı onlardan geri qalmayan, ancaq törətdiyi cinayətlərin üstünü aça bilmək üçün dəlil kifayət etməyərək buraxılmış dul qadın olur. Qonşuluqda yaşayan. 4-cü iştirakçı isə nə qədər qəribə və iyrənc səslənsə də, Muradın atasının doğmaca əmisioğlu olur. Hansı ki, Muradın atasının onu özünə yaxın bilib, Bakıda bir neçə dəfə yaxşı vəzifələrə qoymuş, borc üçün gələndə heç zaman , onu əliboş qaytarmamışdı. Murdar planı ətraflı cızma-qara eləsələr də, axmaqlıqdan əsas şeyi nəzərdə çıxarırlar. Hər il may ayında restoran 2-qat iş rejiminə, daha doğrusu yay mövsümünə keçdiyindən atası, may və iyun aylarında Azərbaycana qayıda bilmirdi. Bircə bu səhv həm özləri həm də ailə üçün böyük bədbəxtliklərə yol açacaq. Belə ki, çirkin planın icrasına başlanılır. Muradın kiçik qardaşı məktəbdən qaçırılır. Növbəti təsadüf baş verir. Evə zəng vuraraq, qardaşını qaçırdıqları barədə xəbər verən zaman, dəstəyi

qaldırmış Muradı, uşağın atası bilib, hər şeyi ona danışırlar və danışdıqları şəxsin uşağın qardaşı olması ağıllarına belə gəlmir. Onlar tələbi belə olur: oğlunuzun sağ qalmasını istəyirsizsə 7 saat ərzində 60 min dollar pulu Razin qəbirstanlığına ən son cərgədəki, əncir ağacının altına gətirməlisiz, polisə və heç bir orqana xəbər vermədən. Murad bunun axmağ zarafat olduğunu düşünüb dəstəyi yerə qoyur. Qardaşının dərsdən qayıtmadığını görüb axtarışlarına başlanır. Növbəti zəngi yenədə Murad götürür və onlarla olduqca sərt danışır.Heç bir güzəştə getməyəcəyini və qardaşını qaçıranların axırına çıxacağına söz verir. Suiqəsdçilər son 2 saat vaxt verirlər və uşağın atası olduğunu sandıqları Muradı dikbaşlığının sonradan böyük fəsadlara yol açağı ilə xəbərdar edirlər. Murad yenə də heç kimlə məsləhətləşmir, qohumları , anası, dayıları məktəb, bağça, kafe-restoran, video oyun salonlarını – siz onda yəqin ki, hələ uşaq idiniz və heç ağlınıza belə gəlməzdi ki, videosalonlarda o vaxtı Dendi və Nintendo oynayırdılar, indi telefonlarınızdakı adı ilan oyunu həmin oyunlardan dəfələrlə üstündür, nəisə yaxınlıqdakı hər binanı hər obyekti hələk-vələk elədikləri halda, Murad ailəsindən xəbərsiz, telefonda suiqəsdçiləri bu plandan daşındırmağa çalışır. 2 saat da keçir. Növbəti zəngdə artıq telefonu yaralı qardaşına ötürürlər. – Məsələnin ciddi olduğunu inandırmaq üçün azyaşlı uşağın ayaq-çeçələ barmağını kəsirlər. Qardaşının xəttin o biri tərəfindən gələn hönkürtüsü Murada nə qədər böyük səhv etdiyini beyninə yeridir. Suiqəsdçilər ona əlavə 1 saat vaxt verirlər. Murad sözün əsl mənasında özünü itirir, özünəəminlik pərdəsi tam aradan qalxır. Ancaq buna rəğmən, o yenə də növbəti səhvini buraxır, orqanlara xəbər vermək əvəzinə girov pulunu çatdırmaq qərarına gəlir. Atasının seyfdə həmin məbləğdən də çox pul saxladığına əmin olaraq, bir qədər özünü ələ almağa çalışır. Ağlına belə gəlmir ki, yeni mövsümlə əlaqədar atası orada yalnız 5 min dollar saxlayıb. Hər şey qəlizləşir. Atasına zəng çatmır, evdə isə seyfdəkindən savayı cəmi 2 min dollara yaxın pul tapır. Yerində donub qalan Murada sonuncu- bu insanın həyatını 180 dərəcə dəyişmiş zəng gəlir. Suiqəsdçilər uşaq atası bildikləri Muradın son dərəcə xəsis olduğunu görüb, ona həmişəlik dərs verməyi

qərara alırlar. İstəyir inanın, istəyir inanmayın qardaşının boğazını telefon dəstəyinin yaxınında yorturlar, ---məsafə elə yaxın olur ki, Murad qan fışqırtısını belə eşidir. Suiqəsdçilər dəstəyi qoyur və bir daha zəng vurmur. Bu başlanğıc nöqtəsidir. Məhz bu son zəng Muradın şəxsiyyətinə, xarakterinə, və həyat tərzinə ciddi təsir göstərir, manyakal davranışların, şizofreniyanın, hallüsinasiyaların ilk toxumları əkilir....

Uzun nitqdən sonra fasilə edən müəllim yenidən yazı masası arxasına əyləşib, konspektin lazımı səhifəsini açır.

- Yazın...

Əhvalat auditoriyanı özünə çəkə bilir, kursantlar müəllimin yazılı mühazirəsindən əvvəl Muradın taleyi və keçmişi haqqında suallar verməyə cürət edir.

- Kamran müəllim bu cür maraqlı məsələni yarımçıq qoyub, yazdırmağa keçməyin? Danışın məsələnin sonrası nə oldu?

Kamran müəllim belini stula söykəyib:

- Dediyim kimi hər şey bundan sonra başladı. Bütün ailə solmuş gül kimi, ləçək buraxmağa başladı. Ata-anası Muradı qardaşının canı bahasına başa gəlmiş dikbaşlığını bağışlamadı. İlk öncə atası, hələ Bakıya çatmamış, təyyarədə ürək tutmasından keçindi. Anası isə sevimli sonbeşiyinin dərdinə dözə bilməyib, evdən özünü asdı. Muradı heç kim himayəsinə götürmədi. Yaşı da qəyyumluq üçün lazım olan yaşı ötmüşdü artıq. Buna görə də, bütün mülk,mal, pul hamısı ona qaldı. Qohumları-yaxınları onunla əlaqəni kəsdi. Muradın bircə çıxış yolu qaldı: ya ölkəni tərk edərək hər şeyi yenidən başlayacaq, ya da buraxdığı böyük səhvə görə tükənməz nifrət dalğasına dözməli olacaqdı. Vicdan əzabı çəkən Murad heç bir vəchlə birincini seçə bilməzdi. Ona görə də, bir növ tərki-dünya oldu. Evdən yalnız axşam

saatlarında çıxmağa başladı. Nə qədər inanmaq çətin olsa da 3-4 ilə yaxın adada tək tənha qalmış insan kimi, ünsiyyətsiz qaldı. Xəstəliyi də elə bundan sonra başladı. Murad özünü sakit etmək,əvvəlki xoş günləri qaytarmaq üçün, bu unikal ideyanı öz beyninə süni şəkildə yeritdi. Qardaşını xilas etməyə yeddi saat gecikdiyindən, təqvimi özü üçün 7 gün dala çevirdi. Suiqəsd nəzəriyyəsi ərsəyə gətirdi. Təqvimi geriyə çevirməklə, özlüyündə, qardaşını, atasını, anasını geri qaytardı, Don Kixot dəyirmanı div gördüyü kimi, Murad da mövcud olmayan “zaman fırıldaqçılarına” qarşı müharibə elan etdi.  Bir neçə ildən sonra tərki-dünyalıq ifrat dərəcəyə çatdı. Artıq 7 gün əvvəlki qəzetləri oxudu, televizoru ümumiyyətlə açmadı. Pulları tükənməyə başladığından, mütləq işə düzəlməyə çalışdı. Buradan da şəxsiyyətin ikiləşməsi sindromuna keçid aldı. “İmran” xarakterini uydurdu və evindən xeyli uzaqlıqda işə düzələrək, ünsiyyətsizlik tilsimini qismən də olsa qırdı. Bununla belə yenə də  başı suiqəsd nəzəriyyəsindən açılmadı, daha da aqresivləşdi, zamanı onun istədiyi şəkildə görməyənlərə, deməyənlərə qarşı,....yeni ildə evinə yeməyə salat gətirmiş qonşu uşağını “suiqəsdçilərdən” bilib, onu.....---heç adam bilmir nə fikirləşsin—uşağa necə öldürüb, necə gizlədibsə, polis hələ də onun izini tapa bilməyib...Sonradan Muradın həyatında yeni stimullar yarandı. Ayan adlı iş yoldaşına aşiq oldu, onunla evlənmək fikrinə düşdü, bununla belə ondan daha da güclü olan “hədəf” işləyib ərsəyə gətirdi: telekanalda efiri işğal edərək, insanları böyük suiqəsddən

xəbərdar etmək... Qısa da olsa  “Efiri işğal etmiş tərcüməçinin” əhvalatı ilə tanış oldunuz. İndi isə dəftərləri açın və artıq sual vermədən yazın.

Kamran müəllim, Murad haqqında ən maraqlı ən vacib sualın heç kimin ağlına gəlmədiyinə sevinib mümkün qədər tez Muradın dosyesinə keçdi.

Kamran müəllim manyakın fiziki əlamətləri barədə məlumatı yazdıran zaman, orta sıralardan qrupda dərs dediyi 1 ay ərzində ilk dəfə eşitdiyi səs gəldi.

- Bəs Muradın sonrakı aqibəti necə oldu? Kanalda çoxumuz onun  güllələndiyini saniyə-bə-saniyə gördük. Onun axırı necə oldu? O öldümü, qaldımı?

Kamran müəllimin bayaqdan  yayınmağa çalışdığı sual səsləndi. Xoşbəxtlikdən sualdan dərhal sonra zəng vurulduğundan, Kamran müəllim özünü  eşitməzliyə vurub, kursantlara tapşırıqları verdi, və tələsik şəkildə, dəftər-kitablarını yığaraq sinif otağını tərk etdi.

## EPILOQ
## İMRANIN BÖYÜK SUİQƏSD NƏZƏRİYYƏSİ

BTV kanalı

21.00  - Xəbərlər

“Bu gün Bakı şəhəri Gömrük Xidməti Baş İdarəsi qarşısında “Parfümer” qadın hərəkatının növbəti kütləvi etiraz aksiyası keçirilib. Minlərlə qadın idarə qarşısında bir araya gələrək, hökümətin kosmetik vasitələrin satışı və idxalına qoyduğu qadağanı qəti şəkildə pisləyib. Ötən il kütləvi ölüm hallarından sonra kosmetikaya qoyulmuş qadağan cana gəlmiş qadınlar Gömrük xidməti və ölkə parlamentinə qarşı müxtəlif şüarlar səsləndirib. Kosmetika defisiti sayəsində, süni gözəllikdən məhrum olmuş və nəticə etibarı ilə iş yerlərindən qovulmuş bir çox qadınlar, o cümlədən katibələr, höküməti bu sanskiyanı qısa müddət ərzində aradan qaldırmağa çağırıb.

Qeyd edək ki, son statistikalar və müşahidələr göstərir ki, qadağa qüvvəyə minəndən bəri, küçələrdə və ictimai yerlərdə gözə dəyən qadınların sayı nə az nə çox 5 dəfə azalıb. Müxalif fəallar bunu yeni kartelin ərsəyə gəlməsi ilə izah edir, Gömrük xidmətindən bu barədə məlumat almaq istəsək də, xidmətin sözçüsü məsələni şərh etməkdən imtina edib. Onu da qeyd edək ki, sanksiya yalnız gələn ilin aprel ayında qüvvəsini itirir.

Ə.H.L

SON